


Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...
Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti — 30 aprel 2024-cü il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR



**BDU-da "ARB 24" televiziyasının "NewsLab" otağı açılıb** →Səh.3

**Böyük alim, qayğıkeş ana, vəfalı ömür-gün yoldaşı – Zərifə xanım Əliyeva** →Səh.5

**"Ulu Öndər Heydər Əliyev Azərbaycanın ekoloji siyasətinin banisidir" adlı tədbir keçirilib** →Səh.7

**BDU və Çinin Hefei Texnologiya Universiteti arasında əməkdaşlığın gücləndirilməsi müzakirə edilib** →Səh.7

**BDU-da tələbələrin IV Respublika konfransı: "Elektron kataloq – yüksək informasiya texnologiyalarının nəticəsi kimi"** →Səh.9

**BDU-da Məhəmməd Füzulinin 530 illik yubileyinə həsr olunmuş elmi seminar** →Səh.9

**BDU tələbələri Türkiyənin İstanbul şəhərindəki kitabxanaların iş təcrübəsi ilə tanış olublar** →Səh.19





**Elm və təhsil nazirinin iştirakı ilə BDU-nun Elmi Şurasının iclası keçirilib** →Səh.2





**BDU-da Türkiyənin İstanbul Universitetinin rektoru ilə görüş** →Səh.2





**BDU-da Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününə həsr olunmuş Kitab Sərgisi keçirilir** →Səh.2





**Jurnalistika fakültəsində Azərbaycan Mətbuat Şurasının otağı açılıb** →Səh.3





**BDU-nun 105 illik yubileyinə həsr olunmuş Karyera Festivalının açılış mərasimi** →Səh.3




## Qalib lider İlham Əliyevin milli ideya konsepsiyasında yeni missiya

***İmperialist dairələrin himayəsi ilə 33 il davam etmiş Qarabağ münaqişəsinə 44 günlük Vətən müharibəsində Azərbaycanın tarixi Zəfəri ilə son qoyuldu, ərazi bütövlüyümüz təmin edildi. Ötən ilin payızında isə qalib ordumuzun Qarabağda apardığı lokal antiterror əməliyyatı erməni separatçılarının və işğalçı Ermənistanın bölgədəki quldur dəstələrinin tör-töküntülərini süpürüb atdı. Artıq dövlət suverenliyimiz ölkəmizin bütün ərazisində bərpa edilib.***

Mübaliğəsiz demək olar ki, bu tarixi Zəfərin bir müəllifi var gücü və birliyi təcəssüm etdirən "Dəmir yumruq". "Dəmir yumruq"un memarı isə Azərbaycanın problemlərinin həllini və gələcək inkişaf yolunu uzaqgörənliklə müəyyənləşdirən, ümummilli lider Heydər Əliyevin ideyalarını, arzu-istəklərini davamlı olaraq gerçəkləşdirən Prezident İlham Əliyevdir. Azərbaycanın milli-mənəvi dəyərlərini, xalqın daş yaddaşını bütün varlığı ilə öz ruhunda yaşadan dövlət başçısının müdrik və qətiyyətli siyasəti ölkəmizə tarixin ən böyük qələbəsini qazandırdı.

Alman sosioloqu M.Veber "Siyasət peşə kimi" əsərində siyasət, milli dövlət, dövlət məmuru anlayışlarına və "Peşəkar siyasətçi kimdir?" sualına cavab axtarmağa çalışmışdır. Məsələn, o, həm "Peşəkar siyasətçi dedikdə nə başa düşürük?" sualını qoyur, həm də bu peşəkar siyasətçi kimi fərqlənən şəxslərin əsas xarakteristikasını açıqlayır. Alim qeyd edir ki, hər bir peşəkar siyasətçi üçün 3 əsas şərt vacibdir: fəaliyyət ehtirası (pasionarlıq); kənardan baxıb qərarvermə bacarığı; məsuliyyət hissinin olması.

Sosioloq həm də rasional idarəetmə üçün dövləti idarə edən şəxsin peşəkar siyasətçi olmasının zəruriliyini vurğulayır. O, liderləri ənənəvi, xarizmatik və rasional-leqal olaraq 3 qismə bölür. Rasional (məntiqlə, qanunla) idarəçilikdə bütün hakimiyyət qanunun aliliyi əsasında qurulur. Veberə görə, bu idarəetmə sistemi məhz qanunun aliliyinə görə ən davamlı, möhkəm və səmərəli üsul olmaqla, əsasən, böyük cəmiyyətlər üçün səmərəlidir. Burada qəbul edilən qərarlar düşünülmüş xarakter daşıdığından həmişə əksəriyyət tərəfindən qəbul edilir. Rasional-leqal lider təkcə bir mərhələdə deyil, bütün dövrlər üçün ən ideal şəxsdir.

Rasional-leqal idarəçilik zamanı cəmiyyət üzvləri hüquqların dövlət hakimiyyəti tərəfindən qorunduğunu görür, onun bütün göstərişlərini yerinə yetirməyi özlərinin borcu bilirlər. Elə zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində özünün real təcəssümünü tapan "Dəmir yumruq"un fəlsəfəsində də liderə, onun rasional keyfiyyətinə inam dururdu. Bəli, "Dəmir yumruq" bir gün, bir ay, bir il ərzində ərsəyə gəlməmişdi. Birinci Qarabağ müharibəsində daxili sosial-siyasi xaosun, hakimiyyət uğrunda irrasional savaşın da şərait yaratdığı acı məğlubiyyətin kütləvi stressindən xalqı çıxarmaq, azərbaycançılıq məfkurəsini siyasi praktikaya birləşdirici məlhəm kimi tətbiq edərək milli həmrəyliyə nail olmaq, ölkənin hərbi immunitetini gücləndirməyə təkan verən iqtisadi əsasları qurmaq, dövlətin beynəlxalq nüfuzunu qlobal ictimai rəyə təsiretmə səviyyəsinə qaldırmaq kimi tarixi missiyanı həyata keçirmək lazım idi.


*(Ardı 4-cü səhifədə)*



## BDU yeni nəsil universitetə çevrilir

→Səh.8

# Elm və təhsil nazirinin iştirakı ilə BDU-nun Elmi Şurasının iclası keçirilib

*Aprelin 2-də Elm və Təhsil Nazirliyinin rəhbərliyinin iştirakı ilə BDU-nun Elmi Şurasının iclası keçirilib.*

İclasdan əvvəl elm və təhsil naziri Emin Əmrullayevin rəhbərliyi ilə nazirliyin nümayəndə heyəti Universitetin yeni təmir olunmuş 2 saylı tədris binası ilə tanış olub. BDU-nun 2 saylı tədris binasında Ulu Öndər Heydər Əliyevin büstünün və şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri düzülüb. Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.





Nazir korpusda yaradılan şəraitlə, buradakı fakültələrin fəaliyyəti ilə tanış olub, "Zəfər tarixi" lektoriyasına, tələbə yeməkxanasına, oxu zalına baxış keçirib.

Tədbir BDU-nun Heydər Əliyev lektoriyasında Elmi Şuranın iclası ilə davam edib.

Nazir Qarabağda qazandığımız böyük Zəfərdən sonra ölkəmizin inkişafının yeni mərhələyə keçdiyini, təhsil və elm sahəsi üzrə də yeni çağırışların olduğunu diqqətə çatdırıb. O qeyd edib ki, BDU Azərbaycanın ali təhsilinin, elminin siması və flaqmanıdır. Emin Əmrullayev ölkənin ən böyük və qədim ali təhsil müəssisəsi kimi BDU-nun qarşısında dayanan yeni hədəflərin 3 əsas istiqaməti əhatə etməli olduğunu bildirib: "Bunlardan birincisi peşəkar kadr hazırlığıdır. BDU-nun 25 mindən artıq tələbəsi var. Hər il əmək bazarına 6 minə yaxın BDU məzunu daxil olur. Bu, böyük rəqəmdir. BDU-nun tədqiqat potensialının daha da artırılmasını ikinci əsas hədəf kimi götürmək olar. Peşəkar kadr hazırlığı kimi, yaxşı alim yetişdirmək də vacibdir. Çünki tədqiqat potensialı istənilən ali təhsil müəssisəsinin keyfiyyətini müəyyən edən əsas amillərdən biridir. Milli ideoloji dəyərlərin daha da inkişaf etdirilməsi də əsas hədəflər sırasındadır. Bu dəyərləri ziyalılar, alimlər, ictimai xadimlər daha çox auditoriya otaqlarında aşılayırlar. BDU uzun illər bu vəzifəsinin öhdəsindən uğurla gəlib, milli ideoloji düşüncənin formalaşmasında böyük rol oynayıb. Azərbaycanın



sabahı üçün də bu resurslara ehtiyac var. Bu üç istiqamət arasında balans yaratmaq və hər birini inkişaf etdirmək çox vacibdir".

Nazir BDU-da fakültələrin rasionallaşdırılmasının vacib olduğunu vurğulayıb, bakalavr və magistr tələbələrin nisbətinin müzakirə edilməli əsas məqamlardan olduğunu qeyd edib. O bildirib ki, BDU magistratura və doktorantura təhsilinə daha çox yer ayırmaqla ölkədə elmi-pedaqoji kadr hazırlığının mərkəzinə çevrilə bilər. Daha sonra nazir BDU-nun beynəlxalq reytinqlərdə mövqeyinin daha da yaxşılaşdırılması, beynəlxalq əlaqələrinin inkişafı ilə bağlı tövsiyələrini verib, Universitetin kollektivinə uğurlar arzulayıb.

Rektor Elçin Babayev nazir Emin Əmrullayevin BDU-ya gəlişi, müəllim-tələbə heyəti ilə görüşü, uğurların və problemlərin müzakirə edilməsinə görə təşəkkürünü bildirib. O qeyd edib ki, nazirin çıxışı BDU-nun inkişafının strateji istiqamətlərini müəyyən etməyə kömək edəcək. Universitetin elmi və tədris potensialı qarşıda duran hədəflərə çatmağa imkan verəcək.

# Türkiyənin İstanbul Universitetinin rektoru ilə görüş

*Aprelin 9-da Türkiyənin İstanbul Universitetinin rektoru Osman Bülent Zülfikar Bakı Dövlət Universitetində olub.*

BDU rektoru Elçin Babayev həmkarına Universitetin tarixi və fəaliyyəti barədə məlumat verib. O bildirib ki, 105 illik tarixə malik BDU Azərbaycanın ən böyük və qədim universitetidir. 25 mindən artıq tələbəsi olan BDU-nun 16 fakültəsində elmin bütün sahələri üzrə yüksəkixtisaslı mütəxəssislər hazırlanır. Tədqiqat istiqamətinə xüsusi önəm verən BDU-nun Hirş indeksi artıq 62-yə çatıb. Rektor İstanbul Universiteti ilə biotexnologiya, nanotexnologiya, biotibbi materiallar, kompüter elmləri, sosial elmlər, jurnalistika, arxeologiya istiqamətləri üzrə geniş əməkdaşlıq imkanlarının olduğunu vurğulayıb. O qeyd edib ki, xüsusilə arxeologiya sahəsi üzrə birgə ekspedisiyalar və laboratoriyalar yaradıla, seçilmiş istiqamətlərdə ikili diplom proqramları imzalana bilər.



İstanbul Universitetinin rektoru Osman Bülent Zülfikar da BDU ilə birgə tədqiqatlara, müəllim-tələbə mübadiləsinə ehtiyac duyulduğunu qeyd edib.

Görüşdə əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində müzakirələr aparılıb.

# BDU-da Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününə həsr olunmuş Kitab Sərgisi keçirilir

*Aprelin 23-də BDU və "Azərbaycan Nəşriyyatları Assosiasiyası" İctimai Birliyinin birgə təşkilatçılığı ilə 23 aprel - Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününə həsr olunmuş Kitab Sərgisi keçirilib.*

BDU-nun həyətində keçirilən sərgidə ölkənin 30-dək tanınmış nəşriyyatı və kitab mağazası iştirak edib.






Sərginin açılış mərasimində çıxış edən BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev bildirib ki, bu il ölkənin ən böyük elm, təhsil, mədəniyyət məbədi olan Bakı Dövlət Universiteti 105 illik yubileyini qeyd edir. Bu münasibətlə qəbul edilən Tədbirlər Planı çərçivəsində il ərzində müxtəlif ictimai, dövlət qurumları ilə birgə layihələr, tədbirlər keçiriləcək. Əliş Ağamirzəyev "Azərbaycan Nəşriyyatları Assosiasiyası" İctimai Birliyi ilə birgə keçirilən sərginin də bu məqsədə xidmət etdiyini bildirib: "Aprelin 23-ü bütün dünyada Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü kimi qeyd olunur. Kitab yeganə informasiya daşıyısıdır ki, sistemli, akademik bilik verir. Bu baxımdan sərgi tələbələrin böyük marağına səbəb olacaq".

"Azərbaycan Nəşriyyatları Assosiasiyası" İctimai Birliyinin sədri Şəmil Sadiq isə kitab sərgilərinin gənclərin oxu mədəniyyətinin və dünyagörüşünün formalaşmasında mühüm əhəmiyyətini qeyd edib. O bildirib ki, 30-a yaxın nəşriyyatı birləşdirən "Azərbaycan Nəşriyyatları Assosiasiyası" fəaliyyət göstərdiyi 4 il ərzində 20-dək sərgi keçirib. Sərgidə iştirak edən nəşriyyatlar tələbələr üçün xüsusi güzəştlər nəzərdə tutublar. O, sərginin tələbələr tərəfindən maraqla qarşılanacağına əminliyini bildirib.

"Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü"nə həsr olunmuş Kitab Sərgisi günün sonunadək davam edib.

# BDU-da “ARB 24” televiziyasının “NewsLab” otağı açılıb

*Aprelin 4-də Jurnalistika fakültəsində “ARB 24” televiziyasının “NewsLab” otağının açılışı olub. Layihə 2022-ci ilin aprel ayında BDU və telekanal arasında imzalanan əməkdaşlıq müqaviləsi çərçivəsində reallaşıb.*



Otağın açılış mərasimində çıxış edən rektor Elçin Babayev tələbələrin nəzəri biliklər əldə etməklə yanaşı, praktik bacarıqlarının möhkəmləndirilməsinin, praktikadan olan peşəkarların tədris prosesinə cəlbinin BDU üçün prioritet olduğunu bildirib. Rektor bu layihə ilə Jurnalistika fakültəsinin tələbələrinin peşə vərdişlərinin daha da artacağını bildirib. O qeyd edib ki, “NewsLab” otağı xüsusilə xəbər jurnalistlərinin hazırlanmasına əvəzsiz töhfə olmaqla yanaşı, birbaşa canlı yayım mərkəzinə çevriləcək. BDU alimləri ən müxtəlif mövzularla bağlı buradan canlı yayıma çıxa biləcəklər.

“ARB 24” telekanalının direktoru Radik İsmayılov isə qeyd edib ki, bu layihə telekanalın ümumrespublika yayımına çıxmasının 10 illik yubileyi münasibətilə BDU-nun Jurnalistika fakültəsinə töhfəsidir. Məqsəd Jurnalistika fakültəsinin tələbələrinin praktiki vərdişlərini artırmaq və onların işlə təmin olunmasını asanlaşdırmaqdır. Kamera, canlı yayım aparatı, kompüter və digər lazımi avadanlıqlarla təchiz olunan studiyadan "ARB 24 NewsLab" təlim proqramı müddətində dərslərin daha yaxşı mənimsənilməsi üçün də istifadə ediləcək. “ARB 24”ün canlı efirlərinə qoşulan BDU əməkdaşları da bu otaqdan yararlana biləcəklər.

Açılış zamanı “ARB 24”ün növbəti təlim proqramı barədə də məlumat verilib və müraciətlərin qəbuluna başlanıldığı elan edilib. İndiyədək keçirilən iki təlim proqramı zamanı 12 tələbə “ARB 24”də işlə təmin olunub. Vurğulanıb ki, təlim proqramı 3 ay davam edir. Müsahibə mərhələsindən uğurla keçən tələbələr daha sonra praktik məşğələlərə cəlb olunurlar. BDU və “ARB 24”ün birgə təşkilatçılığı ilə hazırlanan layihə xəbər hazırlanması, nitq mədəniyyəti, görüntü, videomontaj sahələrini əhatə edir. Layihəni uğurla bitirən tələbələrə sertifikatlar təqdim olunur və iştirakçıların ən azı yarısı əmək müqaviləsi ilə rəsmi şəkildə işə götürülürlər. Proqramın növbəti illərdə də davam etdirilməsi nəzərdə tutulur.

# Jurnalistika fakültəsində Azərbaycan Mətbuat Şurasının otağı açılıb

*Aprelin 17-də Jurnalistika fakültəsində Azərbaycan Mətbuat Şurasının (AMŞ) otağının açılışı olub. Açılış mərasimində BDU rəhbərliyi, AMŞ-nin İdarə Heyətinin üzvləri, media nümayəndələri iştirak ediblər.*



Tədbirdə çıxış edən rektor Elçin Babayev BDU-nun Jurnalistika fakültəsinin ölkədə peşəkar jurnalist kadrlarının hazırlanmasında mühüm rol oynadığını, məzunların medianın müxtəlif sahələrində uğurla çalışdıqlarını bildirib. Rektor qeyd edib ki, tələbələrin nəzəri biliklər əldə etməklə yanaşı, praktik bacarıqlarının möhkəmləndirilməsi, praktikadan olan peşəkarların tədris prosesinə cəlbi baxımından Mətbuat Şurasının otağının açılması mühüm əhəmiyyətə malikdir. Bununla tələbə jurnalistlərin peşə vərdişləri daha da artacaq.

Mətbuat Şurası İdarə Heyətinin sədri Rəşad Məcid isə qeyd edib ki, Şura ilə Jurnalistika fakültəsi arasında əməkdaşlıq getdikcə inkişaf edir: "Cəmiyyətin peşəkar jurnalistlərə hər zaman ehtiyacı var. Jurnalistika fakültəsini bitirənlər öz peşəkarlıqları ilə yanaşı, etik məsələlərə daha çox əməl etmələri ilə seçilirlər. Jurnalistika fakültəsində Mətbuat Şurası otağının olması çox yaxşı təşəbbüsdür. Şuranın müxtəlif komissiyalarının iclasları tələbələrimizin iştirakı ilə keçiriləcək. Bu, onların yetişməsində mühüm rol oynayacaq. Burada Mətbuat Şurasının üzvləri, tanınmış jurnalistlərlə tələbələrin müntəzəm görüşləri təşkil olunacaq. Bu, həm də BDU-nun ictimaiyyətə açıq olmasının göstəricisidir".

# BDU Türkiyənin Kapadokya Universiteti ilə anlaşma memorandumu və “Erasmus” mübadilə protokolu imzalayıb

*Aprelin 29-da BDU ilə Türkiyənin Kapadokya Universiteti arasında anlaşma memorandumu və “Erasmus” mübadilə protokolu imzalanıb.*

Memorandum və protokolu BDU-nun rektoru Elçin Babayev və Kapadokya Universitetinin rektoru Hasan Ali Karasar imzalayıb.

Anlaşma memorandumunda birgə konfransların, seminarların, simpoziumların keçirilməsi, ortaq elmi tədqiqat layihələrinin işlənməsi, akademik və inzibati heyətin, tələbə, doktorant və tədqiqatçıların mübadiləsinin həyata keçirilməsi nəzərdə tutulur.

“Erasmus” mübadilə protokolu çərçivəsində də bakalavr, magistr, tədqiqatçıların və akademik heyətin mübadiləsi həyata keçiriləcək.

Kapadokya Universitetinin əsası 2005-ci ildə qoyulub. 4 fakütə, 11 mərkəz və şöbənin fəaliyyət göstərdiyi universitetdə 9000-ə yaxın tələbə təhsil alır.

# BDU-nun 105 illik yubileyinə həsr olunmuş Karyera Festivalının açılış mərasimi



*Aprelin 30-da Dövlət Məşğulluq Agentliyinin təşkilatı dəstəyi ilə BDU-nun 105 illik yubileyinə həsr olunmuş Karyera Festivalının açılış mərasimi keçirilib.*

Festivalda ölkəmizin nüfuzlu 105 şirkəti tərəfindən BDU-nun tələbə və məzunlarına 1245 vakansiya, 98 təcrübə, 9 təqaüd proqramı təqdim olunur.

Tədbirdə açılış nitqi ilə çıxış edən BDU-nun rektoru Elçin Babayev öncə Festivalın keçirilməsində göstərilən təşkilati dəstəyə görə Dövlət Məşğulluq Agentliyinə təşəkkürünü bildirib. Qeyd edib ki, BDU-nun 105 illik yubileyi münasibətilə ölkənin ən nüfuzlu 105 işəgötürəni ilə birlikdə Karyera Festivalı keçirilir: “Bu tədbir tələbələrin həyatında bir dönüş nöqtəsi, onlar üçün karyera quruculuğunda önəmli fürsətdir. Belə festivallar formal xarakter daşımır, çünki burada hər iki tərəf – həm sabahın məzunu olan təhsilalanlar, həm də işəgötürənlər qazanır. Bu gün ölkənin ən nüfuzlu və müxtəlif istiqamətlərdə fəaliyyət göstərən şirkətləri, dövlət və özəl qurumları buradadır. Hər bir ali təhsil müəssisəsinin fəxri onun məzunlarıdır. Festivalın tələbə və məzunlarımızın gələcək karyeralarında əvəzsiz rol oynayacağına inanıram”.

Rektor bu gün qalib, quruculuq və yaradıcılıq işləri ilə məşğul olan Azərbaycanımıza lazım olan kadr potensialının formalaşdırılmasına birlikdə töhfə verməyin vacib olduğunu deyib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli Bakı Dövlət Universitetinin ölkənin ən qədim, qabaqcıl təhsil ocağı olduğunu deyib. O bildirib ki, Karyera Festivalı məzunların məşğulluğu, işlə təmin olunması baxımından ən önəmli alətlərdən biridir. Bu zaman işaxtaranlarla işəgötürənlər canlı ünsiyyət qurur. Tələbələr və universitetlərlə olan işbirliyi güclənir, işəgötürənlər yeni kadr potensialı əldə edir: “Növbəti dövrlərdə əmək bazarı tamamilə fərqli şəkildə olacaq. Texnologiyanın və süni intellektin inkişafı əmək bazarında köklü dəyişikliklərə yol açacaq və məşğulluq məsələləri fərqli formada təşkil ediləcək. Bu baxımdan universitetlər və tələbələr müasir çağırışlara hazır olmalıdırlar”.

Mustafa Abbasbəyli Agentlik tərəfindən ötən ilin noyabrında “Məzunların məşğulluq reytinqi” platformasının tətbiq edildiyini, bununla ali təhsil müəssisələrinin məşğulluq imkanları haqqında məlumatlılığın təmin edildiyini də vurğulayıb.

Daha sonra iştirakçı şirkətlərin stendlərinə baxış keçirilib. Sərgi iştirakçıları həmin şirkətlər haqqında ətraflı məlumatlandırılıblar.

Qeyd edək ki, festival iki gün davam edəcək. Festivalın ikinci günü müxtəlif mövzularda “workshop” və panel müzakirələr keçiriləcək.



# Qalib lider İlham Əliyevin milli ideya konsepsiyasında yeni missiya

*(əvvəli 1-ci səhifədə)*



**Artıq Azərbaycanda hakimiyyətin, dövlət başçısının, liderin bir İlham Əliyev meyarı və modeli yaranmışdır. "Nəyi, nə zaman, necə etməyi gözəl bilən" İlham Əliyev strateji miqyaslarla düşünür və gələcəyin yol xəritəsini də zərgər dəqiqliyi ilə proqnozlaşdırır. Məğlub Ermənistan və havadarları isə unudurlar ki, Türkiyə – Azərbaycan tandemi təkcə iki liderin iradəsinə bağlı olmayıb, iki vücudda bir can olan xalqlarımızın əzəli, əbədi birliyindədir.**

Bu tarixi missiyanı səbirlə, təmkinlə, addım-addım həyata keçirən ulu öndər Heydər Əliyev son nəfəsinədək xalqına xidmət etdi, yarımçıq qalmış arzularını, o tarixi missiyanı davam etdirməyi isə əminliklə, müdrikliklə siyasi varisi İlham Əliyevə həvalə etdi. Böyük şərəf və ləyaqətlə bu tarixi missiyanı davam etdirən rasional-leqal lider İlham Əiyev tarixi uğurlara imza ataraq məfkurəvi estafeti qəbul etdiyi dünya şöhrətli siyasət və dövlət xadimi Heydər Əliyevin ruhu və xitab etdiyi xalq qarşısında alnıaçıq, üzüağ hesabat verdi.

Müasiri olduğumuz tarixi hadisələrin xarakteri belə qənaətə gəlməyə əsas verir ki, müstəqillik dövrü Azərbaycanında baş verən bu tarixi hadisələr həm siyasi metodologiya, həm də xronoloji kontent baxımından epoxal xarakter daşıyır. İlk mərhələ yenicə müstəqillik qazanıb kövrək addımlarla irəliləyən ölkəmizin müstəqilliyini qəbul etməyən dövlətlər daxili qarışıqlıq yaratmış, xalqımızı separatçı münaqişəyə sürükləmişdi. Təbii ki, siyasi müdrikliyi, dövləti idarəetmə təcrübəsi olmayan o zamankı hakimiyyət ağır tarixi və geosiyasi şəraitdə müstəqilliyi və suverenliyi qoruyub saxlamaq gücündə deyildi. Belə bir şəraitdə xalq həmin dövrün çağırışına cavab verən xarizmatik siyasi lder Heydər Əliyevi hakimiyyətə dəvət etməli oldu. Ulu öndərin hakimiyyətə gəlişi ilə müstəqil Azərbaycan qarşısında ikinci missiya müəyyənləşdi. Bu, yuxarıda bəhs etdiyimiz missiyanın əsaslarını təcrübəli siyasətçi və dövlət xadimi Heydər Əliyev yaratdı. Ümummilli lider 10 illik gərgin fəaliyyətin sonunda ömür vəfa etmədiyindən bu missiyanı rasional-leqal lider keyfiyyətini özündə ehtiva edən İlham Əliyevə ötürdü.

Prezident İlham Əliyevin siyasi marafonunun nəticəsi olaraq, qalibiyyətli müharibə ilə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa olundu. Ancaq ölkə Prezidentinin təbirincə desək: "Bu tarixi Zəfəri də bundan sonra daim istismar etmək düzgün olmaz. Çünki birincisi, siyasi nöqteyi-nəzərdən düzgün olmaz. İkincisi, cəmiyyətdə elə bir sakitləşmə ovqatı da yaradılmamalıdı". Bununla da ölkə qarşısında növbəti missiya durmalıdır. Həm də bu missiya açılmaz, taleyüklü bir hədəf kimi hamımızı düşündürməlidir. Bu missiya nədir? Onu necə anlamalıyıq?

Bununla bağlı həmişə ictimai rəyə böyük önəm verən ölkə başçımız İlham Əliyev bu il yanvarın 10-da ölkənin televiziya kanallarına müsahibəsində açıq mətnlə bildirdi: "Bizim əsas milli ideyamız ərazilərimizi azad etmək idi. Yəni, bütün xalq bu ideya ətrafında, bu amal ətrafında birləşmişdi, biz bunu artıq əldə etmişik. Ona görə gələcək inkişafla bağlı, əlbəttə ki, mənim fikirlərim var və bir çox hallarda onlar həlledici olacaq, təbii ki. Ancaq mən istərdim ki, cəmiyyətdə də bu məsələ ilə bağlı diskussiyalar getsin, siyasətçilər, politoloqlar, elm adamları, ziyalılar, yəni, bizim gələcək inkişafımızla bağlı əsas milli ideya və ideyalarımız nə olmalıdır. Bu, bir ictimai müzakirə mövzusu olmalıdır".

Düzdür, problemin qoyuluşu və ondan irəli gələn "yolumuz haradır?" sualının cavabı heç də asan deyil. Həm də nəzərə alsaq ki, bu gün bəşəri meyillər qeyri-müəyyəndir – ideologiyasızlaşdırılmış, məfkurə böhranı yaşayan dünya üçün belə bu suala cavab çox çətindir. Çünki bəşəriyyət üçün ümumi ideoloji fond yaradan fikirlər yoxdur. Sovet İttifaqının süqutu ilə, əslində, təkcə ikiqütblü dünya reallığı aradan qalxmadı, həm də dünya evi qarşısında bir sual yarandı: "Bəs sonra? İndi yolumuz hardadır?" Qeyd edək ki, bununla bağlı çoxlu polemikalar başladı. SSRİ süqut edəndən dərhal sonra Rusiyanın sosialist şinelindən çıxıb XIX əsr imperiya siyasətinə qayıdışı baş verdi.

Əlbəttə, ABŞ başda olmaqla birləşmiş Qərb bunu əvvəlcədən bilirdi. Ancaq bu onlar üçün daha dözümlü idi, nəinki cazibədar kommunist ideologiyası ilə genişlənmə təhlükəsi olan Rusiya. Amma çox keçmədi ki, ABŞ başda olmaqla Qərb cəbhəsində də fövqəldövlətçilik davranış modeli əsl anaxronizm elementi kimi qıcıq yaratmağa başladı, demokratiya və liberal dəyərlərin, sadəcə, alət olması faktını ortaya qoydu. ABŞ-nin və Qərbin "xeyirxah hegemoniyası" anti-amerikançılığın, anti-qərbçiliyin güclənməsinə səbəb oldu.

Qloballaşma şəraitində yabançı dəyərlərdən, onun kosmopolitizmi təbliğ edən istiqamətlərindən qorunmaq, cəmiyyətimizin sosial xarakterinə neqativ, aşındırıcı təsir göstərə biləcək tərzləri qəbul etməmək, milli kimliyini, özünəməxsusluğunu saxlamaq, öz kökünə, tarixinə milli-mənəvi dəyərlərinə söykənərək mütərəqqi qlobal çağırışlara cavab vermək mühüm vəzifələr kimi qarşımızdadır.

Əslində, yeni missiyanın, Azərbaycanın yaratdığı mövcud reallıqdan irəli gələn yeni milli ideyanın konturları rasional-leqal lider, böyük strateq İlham Əliyevin özü tərəfindən şəkilləndirilmiş, müvafiq yol xəritəsi hazırlanmışdır. Bu, özünü son illər qəbul olunmuş milli prioritetlərlə bağlı strateji yol xəritələrində, dövlət proqramlarında, institusional islahatlarla bağlı Prezident sərəncam və fərmanlarında, dövlətin xarici siyasət vektorlarında, dövlət başçımızın proqram xarakterli çıxışlarında aydın şəkildə göstərir. Müstəqillik əldə etdikdən sonra güclü dövlət milli ideyamızın əsas yönü – birinci missiyamız idisə, qalib dövlət növbəti milli ideya istiqaməti və yeni missiya oldu. Bu gün rifah dövləti yeni missiya – milli ideya istiqaməti kimi qarşımızda durmalıdır.

Şübhəsiz, postmüharibə dövrü Azərbaycanının qarşısında artıq yeni hədəflər müəyyənləşməli, real və potensial təhdidlərə dayanıqlı, daim ölkəmizdə "Axilles dabanı" axtaran, "bəlkə də qaytardılar" xülyası ilə yaşayaraq məkrli planlar quran Ermənistanın revanşist qüvvələrinə heç bir imkan tanımayan, imzası imzalar içərisində əbədiyaşar bir sosial dövlət nümunəsi göstərmək bizim milli ideyamızın əsas qayələrindən biri olmalıdır. Postmüharibə dövrü Azərbaycanında sosial dövlət, ümumi rifah dövləti qurucuğu bir sosial sifariş olmaqla yanaşı, milli ideyamızın əsas prioriteti kimi böyük strateq İlham Əliyevin fəaliyyət hədəflərindən biridir.

Müzəffər xalq postmüharibə dövründə ancaq sosial rifah dövlətinə xas bir inkişaf yoluna layiqdir ki, bu yolun özülü artıq qoyulmuşdur. Vətəndaş–dövlət münasibətlərinin ahəngdar inkişaf edəcəyi sosial dövlətdə cəmiyyətin və dövlətin idarəedilməsində meritokratik dəyərlər tam təntənəsini qeyd etməli, heç kimin kənarda qoyulmayacağı inkluziv cəmiyyət bərqərar olmalıdır. Azərbaycan xalqının təhdid edə biləcək ayrımçı düşüncələrin bütün qalıqlarını cəmiyyətdən bir nəsnə kimi tarixin arxivinə gömmək qarşıda duran əsas hədəflərdən olmalıdır.

Sosial dövlətin sabitliyi, dayanıqlığı müasirlik, güclülük və qanunun aliliyini ehtiva edən hüquqi prinsip şərtləri daxilində mümkündür. Sosial dövlət üçün əsas anlayışlardan biri ədalət anlayışıdır ki, ölkə başçımız bunu bütün uğurlarımızın, gücümüzün uğur dəyəri kimi qiymətləndirir. Qalib dövlətin dayanıqlığı üçün sosial ədalət, bərabər imkanlar və bərabər şanslar, əlçatanlıq, müyəssərlik təmin olunmalı, bərabərsizliyə imkan verilməməlidir. Sosial məmnunluğa nail olunmalı, fərdlər kollektiv şüurla özlərini idarə etməyi bacarmalı, cəmiyyət olaraq bütün neqativlərdən arınmalıdır. Sosial nəzarət, ictimai qınaq fəal olmalıdır.

Artıq Azərbaycanda hakimiyyətin, dövlət başçısının, liderin bir İlham Əliyev meyarı və modeli yaranmışdır. "Nəyi, nə zaman, necə etməyi gözəl bilən" İlham Əliyev strateji miqyaslarla düşünür və gələcəyin yol xəritəsini də zərgər dəqiqliyi ilə proqnozlaşdırır. Məğlub Ermənistan və havadarları isə unudurlar ki, Türkiyə – Azərbaycan tandemi təkcə iki liderin iradəsinə bağlı olmayıb, iki vücudda bir can olan xalqlarımızın əzəli, əbədi birliyindədir.

Tarixi zəfərimizi həzm edə bilməyən Ermənistanın revanşist qüvvələrin təhdidlərinə İlham Əliyevin Azərbaycanı səssiz qalmır, onları bir sıra hallarda öz silahları ilə vurmaqdadır. 2023-cü il oktyabrın 20-də Bakıda Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə "Neokolonializm: insan hüquqlarının pozulması və ədalətsizlik" mövzusunda beynəlxalq konfransa Fransanın müstəmləkə altında saxladığı dənizaşırı ərazilərinin, həmçinin Korsika təmsilçilərinin dəvət edilməsi, bunun öncəsində Qoşulmama Hərəkatında Fransa əleyhinə çıxışların edilməsi və nəhayət, bir müddət öncə Azərbaycanın xüsusi təhlükəsizlik qüvvələrinin Fransa agenturasına vurduğu zərbə və s. bu mübarizəyə parlaq misallardır. Ölkə başçımız telekanallara qeyd edilən müsahibəsi zamanı Qərbin ölkəmizə qarşı davamlı təhdidlərinə işarə edirdi: "Biz hər zaman çox ayıq olmalıyıq, çünki bizə qarşı olan hərəkət, dediyimiz bu məsələlərlə bitməyəcək, bundan sonra da davam edəcək. Çünki biz dünya miqyasında çox böyük layları tərpətdik. Bəlkə də təhlilçilər görürlər ki, bizim Zəfərimizin bəzi ölkələr üçün fəsadları onlara çox baha başa gəlib".

Dünya miqyaslı siyasətçi, müdrik milli lider, qalib Komandan İlham Əliyev elə bir şanlı tarixə imza atmışdır ki, onilliklər, yüzilliklər boyu xalqımızın yolunu müəyyən edəcək. Azərbaycanın orta və uzaq perspektivləri proqnozlaşdırılan olmalıdır. Bu missiyanı hazırlayıb həyata keçirmək liderliyin rasional-leqal keyfiyyətlərini özündə ehtiva edən İlham Əliyevə nəsib olmuşdur. Zəfərlə başa çatan müharibədən sonra cəmiyyəti növbəti hədəflərə istiqamət götürməyə səsləyən dövlət başçısı bununla həm də cəmiyyəti durğunluğa imkan tanımamağa, daim dinamik olmağa dəvət etdi. Pasionar lider xalqı da daim dinamik və pasionar görmək üçün səfərbər edir, cəmiyyət və dövlət qarşısında yeni hədəflər, yol xəritələri, yeni missiya və milli ideya istiqamətləri müəyyənləşdirir.

Böyük strateq İlham Əliyevin inamla qələbədən qələbəyə apardığı Azərbaycanı gələcək nəsillər iftixar hissi ilə qəbul edəcək və yeni missiya və hədəflərlə zənginləşdirəcək.

***Üzeyir ŞƏFİYEV,***
BDU-nun sosial iş kafedrasının müdiri, dosent

# Böyük alim, qayğıkeş ana, vəfalı ömür-gün yoldaşı – Zərifə xanım Əliyeva

*“Azərbaycan xanımının mənəvi dəyərlərini özündə təcəssüm etdirən Zərifə xanım bir qadın, bir həyat yoldaşı, bir ana, bir həkim, bir alim, bir ictimai xadim olaraq elə sağlığında əfsanəviləşməyi bacarıb və daşıdığı bu titulları mərhəmət, şəfqət, humanizm kimi ali hisslərlə bütövləşdirərək əsl insanlıq zirvəsinə yüksəlib”.*

***Ümummilli Lider Heydər Əliyev***

***15 aprel Azərbaycan tibb elminin inkişafına misilsiz töhfələr vermiş, Əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı Zərifə xanım Əliyevanın anadan olmasından 101 il ötür.***



Akademik Zərifə Əliyevanın yaşadığı mənalı ömür yolu hər bir Azərbaycan vətəndaşı üçün həyat və mənəviyyat dərsi, kamillik, müdriklik məktəbidir. Onun zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir.

Zərifə Əziz qızı Əliyeva 28 aprel 1923-cü ildə Naxçıvan Muxtar Respublikasında anadan olub. 1947-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirib. Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1969-cu ildən isə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda Göz xəstəlikləri kafedrasının dosenti, professoru, görmə orqanlarının peşə patologiyası laboratoriyasının müdiri, Oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışıb.

Zərifə Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.

O, dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və elm aləmində yeni bir istiqamətin - peşə oftalmologiyasının əsasını qoyub. Bu sahəyə dair araşdırmalarının ilkin nəticələrini ümumiləşdirərək “Azərbaycanın kimya sənayesi işçilərində görmə orqanının vəziyyəti” mövzusunda doktorluq dissertasiyası yazıb. 1977-ci ildə ona tibb elmləri doktoru alimlik dərəcəsi verilib.

Gərgin və məhsuldar elmi fəaliyyətinə görə 1980-ci ildə Zərifə xanım Əliyeva “Əməkdar elm xadimi” fəxri adına layiq görülüb. Görkəmli alimin respublikanın iri sənaye müəssisələrində apardığı genişmiqyaslı elmi-tədqiqat işləri “Şin istehsalında gözün peşə patologiyası”, “Xroniki yod intoksikasiyası zamanı oftalmologiya” və “Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası” kimi dəyərli monoqrafiyalarında öz əksini tapıb. 1981-ci ildə görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə və oftalmologiyanın inkişafına verdiyi töhfələrə görə ona keçmiş ittifaqın oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatı verilib. O, həmin mükafata layiq görülən ilk qadın alim idi.

Zərifə Əliyeva yüksək ixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük əmək sərf edib. Onun birbaşa rəhbərliyi ilə gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişib.

Akademik Zərifə Əliyeva həm də görkəmli ictimai xadim idi. O, keçmiş SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, Ümumittifaq “Bilik” Cəmiyyəti İdarə Heyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü olub.

Zərifə xanım Əliyeva bütün bu elmi-ictimai fəaliyyətləri ilə yanaşı, həm də vəfalı ömür-gün yoldaşı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ən yaxın silahdaşı, Vətən üçün layiqli övladlar böyütmüş ləyaqətli Ana idi. O, müstəqil Azərbaycanın son 200 ildə ən böyük qələbəsini qazanan, Müzəffər Ali Baş Komandan, Ulu Öndərin layiqli davamçısı İlham Əliyev kimi böyük dövlət xadimini Azərbaycan xalqına bəxş edib.

Zərifə xanım Əliyeva 1985-ci il aprelin 15-də Moskva şəhərində əbədiyyətə qovuşub.

Görkəmli ziyalı, elm xadimi, gözəl insan, vəfalı ömür-gün yoldaşı, qayğıkeş ana, bənzərsiz vətəndaş olan Zərifə Əliyevanın əziz xatirəsi hər bir azərbaycanlının qəlbində əbədi yaşayacaq!

# BDU-da professor Əsməd Muxtarovanın 80 illik yubileyi qeyd olunub

***Aprelin 4-də Tarix fakültəsində Türk xalqları tarixi kafedrasının müdiri, tarix elmləri doktoru, professor Əsməd Muxtarovanın 80 illik yubileyinə həsr olunmuş “Ortaq türk tarixinin tədqiqi, tədrisi, təbliği məsələləri istiqamətində professor Əsməd Muxtarovanın fəaliyyəti” adlı tədbir keçirilib.***



Əvvəlcə yubilyara həsr edilmiş “Tarixçi ömrünün tarixə dönmüş səhifələri” adlı videotəqdimat nümayiş olunub.

Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, professor Əsməd Muxtarova Azərbaycan və türk xalqlarının tarixinin tədqiqi, öyrənilməsi və ölkəmizdə yüksəkixtisaslı tarixçi kadrların yetişdirilməsində mühüm xidmətlər göstərib. O, professor Əsməd Muxtarovanın həyat və fəaliyyətinin ötən əsrin 60-cı illərinin sonundan BDU ilə bağlandığını, onun türk xalqlarının dövlətçilik, qədim dövr və orta əsrlər tarixinin öyrənilməsində xüsusi rolu olduğunu xatırladıb. Rektor Əsməd Muxtarovanı yubileyi münasibətilə təbrik edib, ona uğurlar arzulayıb. Tarix fakültəsinin dekanı, tarix elmləri doktoru, professor İbrahim Zeynalov “Türk xalqları tarixi kafedrası professor Əsməd Muxtarovanın rəhbərliyi dövründə” mövzusunda məruzə ilə çıxış edib.

BDU-nun Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri, tarix elmləri doktoru, akademik Yaqub Mahmudov, Milli Məclisin vitse spikeri, tarix elmləri doktoru, professor Fəzail İbrahimli çıxışlarında professor Əsməd Muxtarovanın həyat yolu və elmi yaradıcılığının müxtəlif aspektlərindən danışıb, görkəmli alimə təbriklərini çatdırıblar.

Tədbirdə Türk xalqları tarixi kafedrasının professoru, “Tarix və onun problemləri” jurnalının baş redaktorunun müavini, tarix elmləri doktoru İsmayıl Məmmədovun ““Tarix və onun problemləri” elmi, nəzəri, metodik jurnalın təsisçisi və baş redaktoru professor Əsməd Muxtarova”, Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Azad Rzayevin “İxtisaslı gənc kadrların hazırlanması sahəsində professor Əsməd Muxtarovanın fəaliyyəti”, Slavyan ölkələri tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Sevda Hüseynovanın “Türk dünyası inteqrasiya prosesləri baxımından professor Əsməd Muxtarovanın fəaliyyəti”, Türk xalqları tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Sənubər İsmayılovanın “Professor Əsməd Muxtarova timsalında Azərbaycan qadını” adlı məruzələri dinlənilib. Həmçinin AMEA-nın Naxçıvan bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Türkiyənin Uludağ Universitetinin Siyasi tarix kafedrasının müdiri, professor Barış Özdal, 2019-2022-ci illərdə Əsməd Muxtarovanın doktorantı olan və tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsini uğurla müdafiə edən, hazırda Ankara Hacı Bayram Vəli Universitetində çalışan Oğuz Bayrakdar yubilyara videotəbriklərini çatdırıblar.



# BDU tələbələri sosial problemlərin həllində müasir texnologiyaların imkanları haqqında məlumatlandırılıblar

***Aprelin 22-də Sosial elmlər və psixologiya fakültəsində İnnovativ həllər üzrə konsultant, Azərbaycan İnnovasiya Kommunikasiya Texnologiyaları Assosiasiyasının üzvü Mübariz Qasımov tərəfindən “Sosial innovasiyalar” mövzusunda təlim keçirilib.***

Təlimin keçirilməsində məqsəd sosial problemlərin həllində müasir texnologiyaların tətbiqi imkanları haqqında tələbələri məlumatlandırmaqdır. Mübariz Qasımov bildirib ki, sosial innovasiya sosial problemlərin daha səmərəli, ədalətli, həmçinin qeyri-ənənəvi üsullarla yeni həllidir. O, bu istiqamətdə süni intellekt, məlumat analitikası, mobil texnologiya, virtual və artırılmış reallıq, əşyaların interneti kimi texnologiyaların imkanlarından yararlanmaqla sosial rifahın təmin olunduğu təcrübələrdən konkret nümunələr gətirib. Təlimçi innovativ texnologiyaların cəmiyyətin sosial inkişafında, qeyri-bərabərliyin, məhrumiyyətlərin aradan qaldırılmasında, bir çox resurslara çıxışın təmin olunmasında geniş imkanlar yaratdığından da danışıb.

Sosiologiya kafedrasının müdiri Rəfail Həsənov tələbələrin peşə kompetensiyalarının zənginləşdirilməsində bu cür təlimlərin müsbət əhəmiyyətini qeyd edib.

# Görkəmli alim, yazıçı və pedaqoq Mir Cəlal Paşayevin anadan olmasından 116 il ötür

***26 Aprel XX əsrin ədəbi-elmi fikrinin korifeylərindən sayılan görkəmli alim, yazıçı və pedaqoq Mir Cəlal Paşayevin anadan olmasından 116 il ötür.***

Mir Cəlal Paşayev 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanda (Ərdəbil ostanı) yoxsul kəndli ailəsində dünyaya göz açıb. Kiçik yaşlarında atası Gəncəyə köçdüyündən uşaqlığı burada keçib. Mir Cəlal 10 yaşında olanda atası vəfat edib və o, böyük qardaşının himayəsində yaşayıb.

Mir Cəlal Paşayev 1918–1919-cu illərdə Xeyriyyə Cəmiyyətinin köməyi ilə ibtidai təhsil alıb və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Gəncə Darülmüəllimliyinə daxil olub. Tələbə təşkilatının, sonra isə şəhər tələbə həmkarlar təşkilatının sədri seçilib. Kazan Şərq Pedaqoji İnstitutunun ədəbiyyat şöbəsində, Azərbaycan SSR Elmlər Akademiyasının aspiranturasında təhsilini davam etdirməklə yanaşı, müəllimlik edib və millətinin övladlarına xalqının ədəbiyyatını, mədəniyyətini, zəngin keçmişini mənimsədib. Bu mənada Mir Cəlal Paşayevin XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafındakı xidmətləri misilsizdir.

Yazıçı kimi 1928-ci ildə ədəbiyyata gələn Mir Cəlal elə həmin ildə də ilk tədqiqat əsərini yazıb. Sözün gücünə güvənib, onun böyüklüyünə baş əyən sənətkarın könüllərə yanğı salmış "Bir gəncin manifesti" əsəri, zəmanənin güzgüsü olan hekayələri klassik bədii nümunələr kimi ədəbiyyat tariximizin səhifələrində müəllifinə əbədiyaşarlıq qazandırıb. Onun böyük zəhmətinin bəhrəsi olan "Füzuli sənətkarlığı", "XX əsr Azərbaycan ədəbiyyatı", "Azərbaycanda ədəbi məktəblər (1905-1917)", "Ədəbiyyatşünaslığın əsasları" adlı fundamental əsərləri ədə-



biyyatşünaslıq elminin qiymətli mənbələrindəndir.

Bakı Dövlət Universitetinin sevimli müəllimi, nüfuzlu professoru kimi xatirələrdə daim yaşayan Mir Cəlal Paşayev həqiqət, düzlük, səmimiyyət aşiqi, ailəsini, övladlarını, tələbələrini sevən, qoruyan şəxsiyyət olub. Onun bu kəlamı indi də dillər əzbəridir: "Həyatımda yaratdığım ən böyük əsər ailəmdir".

XX əsrin 20-30-cu illərində ədəbi aləmdə əvvəlcə şeir, sonra isə oçerk və hekayələri ilə görünən Mir Cəlal az sonra istedadlı və orijinal yaradıcılıq üslubu olan yazıçı kimi tanınıb. Mir Cəlal öz yazı üslubu ilə həmkarlarından fərqlənərək Azərbaycan ədəbiyyatına yeni nəfəs gətirib. XX əsr Azərbaycan ədəbiyyatının bir sıra nailiyyətləri bilavasitə Mir Cəlal Paşayevin adı ilə bağlıdır. Əlli illik yaradıcılıq fəaliyyəti dövründə o, görkəmli nasir kimi Azərbaycan ədəbiyyatı tarixində öz layiqli və şərəfli yerini tutub. Təkcə "Bir gəncin manifesti" əsərinə görə Mir Cəlal klassik sənətkarlar sırasında dayanmaq haqqını qazanıb. Bu əsər çapdan çıxanda onun heç 30 yaşı yox idi. 1928-ci ildə mətbuatda ilk şeirləri ("Dənizin cinayəti", "Ananın vəsiyyəti", "Müxbir") çap olunub. O dövrün "Şərq qadını", "Gənc işçi", "İnqilab və mədəniyyət", "Ədəbiyyat qəzeti" kimi nüfuzlu nəşrlərində "Doktor Cinayətov", "İfşa", "Mərkəz adamı", "Naxələf", "Bostan oğrusu", "Qüdrət nümayişi", "İstifadə", "Dəzgah qızı", "Heyrət" və digər hekayələrini çap etdirib. 1932-ci ildə "Sağlam yollarda", 1935-ci ildə "Boy" adlı ilk oçerklər və novellalar kitabları işıq üzü görüb.

Mir Cəlalın ilk irihəcmli əsəri – "Dirilən adam" romanı 1935-ci ildə ayrıca kitab kimi nəşr olunub. Hələ yarım əsr bundan əvvəl akademik Məmməd Arif yazırdı: "Mir Cəlal "Dirilən adam"la diqqətli bir realist yazıçı olduğunu göstərib".

"Bir gəncin manifesti" əsəri isə yazıçının həyatında böyük bir dönüş yaradıb, ədəbi zirvəyə aparan yoluna cığır açıb və müəllifə böyük oxucu auditoriyası qazandırıb. 1940-cı ildə "Uşaqgəncnəşr"də kitab halında kütləvi tirajla buraxılan bu əsər oxucu tələbatına görə sonrakı illərdə də təkrar çap edilib. "Bir gəncin manifesti" bu gün də qəlbləri riqqətə gətirir. Doqquz dəfə müxtəlif illərdə ayrıca kitab halında nəşr olunan bu əsər Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda da sevilir.

Mir Cəlalın "Dirilən adam", "Bir gəncin manifesti", "Yolumuz hayanadır" romanlarında keçmiş, "Açıq kitab", "Yaşıdlarım", "Təzə şəhər" romanlarında isə müasir həyat lövhələrinin bədii təsviri ustalıqla qələmə alınıb. Yazıçının "İnsanlıq fəlsəfəsi" (1961) kitabında toplanmış hekayələri də böyük tərbiyəvi-əxlaqi əhəmiyyətə malikdir. "İnsanlıq fəlsəfəsi", "Subaylıq fəlsəfəsi", "Təzə toyun nəzakət qaydaları", "Vicdan mühakiməsi", "Vicdan əzabı", "Hesab dostları", "Təsadüf, ya zərurət", "Qocaların uşaq söhbəti" və digər hekayələrində isə real həyat lövhələri, fəlsəfi düşüncələr əks olunub. İndiyədək yazıçının 70-dən çox kitabı çap edilib.

Mir Cəlal Paşayev çağdaş Azərbaycan tarixində ədəbiyyatşünas-nəzəriyyəçi alim kimi də müstəsna və özünəməxsus yer tutub.

Mir Cəlal Paşayev 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" əsərinə görə filologiya elmləri namizədi, 1947-ci ildə isə "Azərbaycanda ədəbi məktəblər" əsərinə görə filologiya elmləri doktoru alimlik dərəcələrini alıb. Füzuli poeziyasının qüdrətinə heyran olan, ümumiyyətlə, klassik ədəbiyyata qəlbən bağlı Mir Cəlal Paşayev 1958-ci ildə bu mövzuya yenidən müraciət edərək "Füzuli sənətkarlığı" adlı monoqrafiyasını nəşr etdirib.

Mir Cəlal Paşayevin tanınmış tədqiqatçı Firudin Hüseynovla birgə yazdığı "XX əsr Azərbaycan ədəbiyyatı" əsəri uzun illərdir ki, ali məktəblər üçün dərs vəsaitidir. Bu dərslikdə XX əsrin böyük ədəbi şəxsiyyətləri, onların yaradıcılığı, ədəbi mühitə gətirdikləri yeniliklər haqqında əhatəli elmi fikirlər əks olunub.

1978-ci il sentyabrın 28-də əbədiyyətə qovuşmuş, gözəl müəllim, görkəmli yazıçı, istedadlı ədəbiyyatşünas Mir Cəlal Paşayevin çoxşaxəli yaradıcılığı nəinki müasirlərinə, özündən sonra gələn nəsillərə də örnəkdir. Təsadüfi deyil ki, bu gün təkcə Azərbaycanda deyil, onun sərhədlərindən kənarda da görkəmli ədibin həyat və yaradıcılığı geniş şəkildə öyrənilir və əsərləri çap olunaraq maraqla oxunur.

"UNESCO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında" Azərbaycan Prezidentinin 2008-ci il 31 yanvar tarixli sərəncamına əsasən, yazıçı Mir Cəlal Paşayevin yubiley mərasimi təntənə ilə qeyd edilib. UNESCO-nun Parisdə yerləşən iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilib. Bu, həm də Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən dəyərin təzahürüdür.

Bakı Dövlət Universitetində ötən il görkəmli yazıçının 115 illik yubileyi silsilə tədbirlərlə qeyd olunub. BDU-nun təşkilatçılığı ilə böyük ədib, ədəbiyyatşünas alim və pedaqoq Mir Cəlal Paşayevin 115 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransı keçirilib. BDU-nun Mir Cəlal Paşayev adına məqsədli təqaüdünün qalibi elan edilib. Bakı Dövlət Universitetinin professor-müəllim heyəti Mir Cəlal Paşayevin 115 illik yubileyinə həsr olunmuş tədbirlər çərçivəsində görkəmli ədibin II Fəxri xiyabandakı məzarını, Gəncə şəhərində yerləşən ev-muzeyini ziyarət edib, Gəncədə Mir Cəlal adına 39 nömrəli tam orta məktəbdə olub. BDU-nun tələbələri arasında böyük yazıçı və alim Mir Cəlal Paşayevin 115 illik yubileyi münasibətilə elan edilmiş qısa hekayə müsabiqəsinin qalibləri Gəncədə görkəmli yazıçının ev-muzeyində elan və təltif olunub. Daha sonra yubiley tədbirləri çərçivəsində Qazax Müəllimlər Seminariyasında görüş keçirilib.

Mir Cəlal Paşayev insanlıq, xeyirxahlıq, müəllimlik, ədəbiyyatşünaslıq məktəbi yaradıb. Bu məktəbin işığı sonrakı nəsillərin yoluna daim işıq salır. Böyük ziyalımızın əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq!

# Şükranlıq, xeyirxahlıq, bərabərlik bayramı

***Aprelin 10-u insanların ruhunu və mənəviyyatını saflaşdıran, onları humanizmə, birlik və bərabərliyə dəvət edən müqəddəs Ramazan bayramıdır.***

Müqəddəs kitabımız "Qurani-Kərim"in nazil olduğu mübarək Ramazan ayını məcazi mənada "on bir ayın sultanı" adlandırırlar. Ramazan ayı mənəviyyatı möhkəmləndirən, dini-mənəvi birlik duyğusunu gücləndirən, hər bir şəxsin daxili kamilliyinin formalaşmasına xidmət edən aylardan biridir.

Ramazan ayı insanları xeyirxah əməllərə dəvət edən, onlara əxlaqi saflığın, nəfs üzərində qələbənin və ruhi-mənəvi kamilliyin sevincini yaşadan mübarək aylardandır.



Mübarək Ramazan ayında müsəlmanlar Uca Yaradan qarşısında öz borcunu ləyaqətlə yerinə yetirmək fürsəti əldə edir, mənəvi kamilliyin və savab əməllərin sevincini yaşayırlar.

Tarixən Azərbaycan cəmiyyətində vəhdətin, həmrəyliyin və nümunəvi tolerantlıq mühitinin bərqərar olmasında İslam dini əhəmiyyətli rol oynayıb. Milli-mənəvi dəyərlərinə hər zaman dərin bağlılıq nümayiş etdirən xalqımız öz adət-ənənələrini, dini ayin və mərasimlərini bu gün də layiqincə qoruyub saxlayır, o cümlədən Ramazan bayramını hər il xüsusi təntənə ilə keçirir.

Ramazan bayramı insanları savab əməllərə dəvət edir, onları yer üzündə sülhün, əmin-amanlığın və qardaşlığın bərqərar olması naminə birgə səylər göstərməyə çağırır. Ümumbəşəri əhəmiyyətə malik bu bayram insana sonsuz iman sevgisi bəxş edir. Savab, ülfət ayı olan Ramazan əsrlər boyunca bəşər övladına dözüm, mərhəmət, Allahın yaratdıqları arasında münasibətlərdə xeyirxahlıq tələqin edir, mili-mənəvi birlik, humanizm, səbr, dözüm, yardımsevərlik aşılayır.

Builki Ramazan bayramı həm də otuz illik düşmən tapdağından azad edilmiş dədə-baba yurdlarımızda, Azərbaycanın bütün suveren ərazisində keçirilməsi ilə əlamətdardır.

Mübarək Ramazan bayramı dövlətimizə sülh, firavanlıq, xalqımıza ruzi-bərəkət gətirsin. Oruc və dualarınız həmişə Tanrı dərgahında qəbul olsun! Ramazan bayramınız mübarək!

# "Ulu Öndər Heydər Əliyev Azərbaycanın ekoloji siyasətinin banisidir" adlı tədbir keçirilib

*Aprelin 25-də Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon təşkilatı və "Z.Xəlilov küç. 33" (Bakı Dövlət Universiteti) ərazi partiya təşkilatının birgə təşkilatçılığı ilə "Ulu Öndər Heydər Əliyev Azərbaycanın ekoloji siyasətinin banisidir" adlı tədbir keçirilib.*



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Giriş nitqi ilə çıxış edən "Z.Xəlilov küç. 33" (Bakı Dövlət Universiteti) ərazi partiya təşkilatının sədri, professor Zahid Cəfərov bildirib ki, Ulu Öndər Heydər Əliyev 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtdıqdan sonra ölkədə yaranan ictimai-siyasi sabitlik şəraitində ardıcıl və düşünülmüş yeni ekoloji siyasətin aparılmasına başlanılıb. Ümummilli Liderin ekoloji siyasət strategiyası onun çıxışlarında, nitqlərində aydın ifadə olunub və ölkə qanunvericiliyində öz əksini tapıb. Bu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

YAP-ın Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib ki, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi və ölkəmizin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP 29) kimi nüfuzlu beynəlxalq tədbirə ev sahibliyi etməsi tarixi hadisə, Azərbaycana göstərilən böyük etimaddır. Bu etimadın təməlində isə Ulu Öndər Heydər Əliyev siyasətini, ideyalarını layiqincə davam etdirən Prezident İlham Əliyev dayanır. Qeyd olunub ki, Azərbaycanda yürüdülən ekoloji siyasətin əsas məqsədi indiki və gələcək nəsillərin ehtiyaclarını təmin etmək naminə təbii ehtiyatlardan səmərəli istifadə etməkdir.

Tarix fakültəsinin Azərbaycan tarixi kafedrasının müdiri Azad Rzayev diqqətə çatdırıb ki, Heydər Əliyev ekoloji siyasət strategiyasında ağac əkmək, meşələri, yaşıllıqları qorumaq işlərinə hər zaman geniş yer verib. Ulu Öndərin ətraf mühitin qorunması, təbii sərvətlərdən səmərəli istifadə siyasətinin Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ekologiyanın mühafizəsi sahəsində yeni uğurların əldə olunmasına təkan verib.

Coğrafiya fakültəsinin dekanı Məqsəd Qocamanov isə bildirib ki, ölkəmizdə 2003-cü ildə "Ekoloji cəhətdən davamlı sosial-iqtisadi inkişaf üzrə Milli Proqram" qəbul olunub. Minilliyin inkişaf məqsədlərindən biri olan davamlı inkişaf prinsipləri dövlət siyasətinin tərkib hissəsi kimi həyata keçirilir. Bu istiqamətdə çirklənmiş ərazilərin bərpası, meşə ilə örtülü ərazilərin artırılması, bitki və heyvanat aləminin qorunması, quru ərazilərdə torpaqların münbitləşdirilərək yaşıllaşdırılması, Xəzər dənizinin sahillərinin, sularının, canlı aləminin mühafizəsi, iqlim dəyişikliklərinin zərərli təsirlərinin azaldılması başlıca fəaliyyət proqramı kimi həmişə diqqət mərkəzindədir.

# BDU və Çinin Hefei Texnologiya Universiteti arasında əməkdaşlığın gücləndirilməsi müzakirə edilib

*Aprelin 26-da BDU və Çinin Hefei Texnologiya Universiteti arasında əməkdaşlığın daha da gücləndirilməsi müzakirə edilib.*

Görüşdə BDU rektorunun rəqəmsallaşma və informasiya texnologiyaları üzrə müşaviri Şəbnəm Səfərova, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, Fizika fakültəsinin dekanı Bəxtiyar Paşayev, dekan müavini Vüsal Məmmədov, Nanomaterialların kimyəvi fizikası kafedrasının baş müəllimi Lalə Qəhrəmanlı, Kimya fakültəsinin dekanı Fuad Kərimli, fakültənin əməkdaşı Turanə Babayeva, Biologiya fakültəsinin müəllimləri Samirə Salayeva və Nigar Hüseynova, Hefei Texnologiya Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin direktoru Zhang Sihong, direktor müavini Hu Jia, şöbə müdiri Fan Xiaofeng, Kompüter və kompüter elmləri məktəbinin direktor müavini Vu Gongqing, beynəlxalq mübadilə və məzunlarla iş üzrə köməkçi Zhong Xuyang, Kimya və kimya mühəndisliyi məktəbinin direktor müavini Zhang Davei, Resurslar və ətraf mühit mühəndisliyi məktəbinin müəllimi Shen Yuefeng, Qida və biomühəndislik məktəbinin direktor müavini Van Huiley, Fizika məktəbinin dosenti Jing Jia iştirak ediblər.

Görüşdə iki universitet arasında ötən il imzalanan əməkdaşlıq haqqında anlaşma memorandumuna uyğun olaraq müvafiq istiqamətlər üzrə birgə ikili diplom proqramı layihəsinin hazırlanması barədə fikir mübadiləsi aparılıb. Tərəflər arasında elm, təhsil, mədəniyyət sahələrində müştərək layihələrin icra edilməsi, akademik, elmi və mədəni mübadilə imkanlarının inkişafı, elmi-tədqiqat işlərində əməkdaşlıq, birgə yay və qış məktəblərinin təşkili kimi məsələlər də müzakirə olunub.

# BDU tələbələri Heydər Əliyev Mərkəzini ziyarət ediblər

*Aprelin 24-də "BDU könüllüləri" təşkilatının Şərqşünaslıq fakültəsi üzrə üzvlərinin təşəbbüsü ilə Heydər Əliyev Mərkəzinə ziyarət təşkil edilib.*



Ziyarət zamanı tələbələrə Mərkəzlə bağlı geniş məlumat verilib. Qeyd edilib ki, Mərkəzin fəaliyyəti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının, Ulu Öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib. Tələbələr Mərkəzdə Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinin bütün dövrlərini əhatə edən video və fotoarxiv sənədləri, eləcə də müxtəlif eksponatlarla tanış olublar.

Sonra tələbələr Mərkəzin müasir incəsənət nümunələrinin sərgiləndiyi bölmələrinə, Bakıda yerləşən tikililərin maketlərinə, Gürcüstan, Özbəkistan kimi ölkələrin mədəniyyətini əks etdirən eksponatlara baxış keçiriblər. Qədim xalçaçılıq, musiqi alətləri və kukla sənətinin nümunələrinin, cizgi filmlərinin personajları və müxtəlif rəsm əsərlərinin nümayiş etdirildiyi xüsusi bölmələr isə ən çox maraq cəlb edən hissələrdən olub.

Tələbələrə bildirilib ki, müasir Bakının simvollarından olan Mərkəz 2012-ci il mayın 10-da, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 89-cu ildönümündə istifadəyə verilib. Heydər Əliyev Mərkəzinin binasının layihəsinin müəllifi dünya şöhrətli memar Zaha Hadiddir.

# BDU tələbələri istehsalat bacarıqlarını yüksəldirlər

*Aprelin 30-da Biologiya fakültəsinin IV kurs tələbələri "Azerbaijan Fish Farm" MMC, "Biyan products" MMC, "Azərfarm" LTD, Azərbaycan Tibb Universitetinin Əczaçılıq fakültəsinin Əczaçılığın idarə edilməsi laboratoriyasında istehsalat təcrübəsində olublar.*

"Azerbaijan Fish Farm" MMC-də tələbələrə ixtisaslaşmış damazlıq təsərrüfatının fəaliyyəti, zavodda quraşdırılmış müasir standartlara cavab verən qurğuların iş prinsipi izah edilib, tələbələr nərə növləri ilə tanış olublar.

"Biyan products" MMC-də təcrübə zamanı tələbələrə bildirilib ki, müəssisənin yaradılmasında məqsəd müasir texnologiyalardan istifadə edərək, emal olunmuş biyan kökü və biyandan hazırlanan 100 faiz bitki mənşəli, bioloji fəallığa malik qida əlavələrini dünya bazarına çıxarmaqdır. Ümumi sahəsi 11 hektar olan Biyan Sənaye Parkının ərazisinə Biyan tədarükü və emalı zavodu, Bitki ekstraktı və siropu zavodu, digər yardımçı binalar daxildir. Tələbələr zavodun iş prinsipi, dərmanların alınma texnologiyası ilə tanış olublar.

Azərbaycan Tibb Universitetinin Əczaçılıq fakültəsinin Əczaçılığın idarə edilməsi laboratoriyasında təcrübə zamanı kafedranın professor-müəllim və laborant heyəti müxtəlif növ dərman preparatlarının formasının, tərkibinin hazırlanması, müasir texnologiyalı cihaz və qurğuların istifadə qaydası barədə tələbələrə məlumat verib."Azərfarm" LTD şirkəti yerli istehsalla məşğul olur və əsasən digər ölkələrdən idxal olunmuş yarımfabrikat məhsulların ikinci istehsalını sona çatdırır. Burada təcrübə müddətində tələbələr şirkətdə müxtəlif farmakoloji qruplardan olan tablet, kapsul, məlhəm, inyeksiya, məhlul və şərbət formalı 70 -ə yaxın dərman preparatının istehsalat prosesi ilə tanış olublar.

# "Azərbaycanda gender məsələləri" mövzusunda açıq müzakirə

***"BDU könüllüləri" təşkilatının nəzdində fəaliyyət göstərən "Sustainable Development Goals" klubunun təşəbbüsü ilə "Azərbaycanda gender bərabərliyi" mövzusunda açıq müzakirə keçirilib.*** Müzakirə zamanı müasir cəmiyyətdə "gender" termininin müxtəlif mənaları, onun təzahür formalarından danışılıb. Ölkəmizdə aparılan davamlı islahatların və vətəndaş cəmiyyətinin formalaşmasında əhalinin fəallığının artırılması yönündə görülən işlərin qadınların da cəmiyyətdəki rolunun artırılmasına istiqamətləndirildiyi deyilib. Azərbaycanda gender bərabərliyinin, qadın hüquqlarının ən yüksək səviyyədə təminatının Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət siyasətinin nəticəsi olduğu vurğulanıb. Müzakirədə həmçinin "Gender bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının qanununda öz əksini tapan müddəaların və formalaşmış hüquqi normativ bazanın bu sahənin tənzimlənməsini həyata keçirdiyi, buna nəzarətin isə aidiyyəti dövlət qurumları tərəfindən təmin olunduğu bildirilib.

# BDU yeni nəsil universitetə çevrilir

***Müasir standartlara cavab verən, keyfiyyətli təhsil və elmi-tədqiqat mühitinin yaradılması hər bir universitet üçün uğurun əsas şərtidir. Bu il 1 sentyabr tarixində 105-ci yubileyini qeyd etməyə hazırlaşan, ölkəmizin ən böyük və qədim universiteti olan BDU bu gün 16 fakültəsində elmin bir çox sahələri üzrə yüksəkixtisaslı mütəxəssislər hazırlanır.*** BDU son illər ölkənin ali məktəblərinin lideri kimi öz nüfuzunu qorumaqla yanaşı, təhsilin, elmi tədqiqatların keyfiyyətinin yüksəldilməsi, idarəetmə sisteminin təkmilləşdirilməsi, elmi nəticələrin və innovasiyaların tədris prosesinə davamlı tətbiqi istiqamətində geniş tədbirlər görür. Başqa sözlə, klassik universitetdən "Tədqiqat Universiteti"nə, yeni nəsil universitetə çevrilir. Qürurverici haldır ki, bu prosesin əsas hərəkətverici qüvvəsi tələbələr və gənc tədqiqatçılardır. Son illər Universitetdə bu istiqamətdə həyata keçirilən məqsədyönlü işlər artıq öz bəhrəsini verir...




***BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi: ideyadan reallığa***

Tələbələrdə təhsil-elm-innovasiya təfəkkürünün inkişaf etdirilməsi, tələbə ideyalarının həyata keçirilməsi üçün 2022-ci il iyunun 24-də BDU-da Tələbə Elmi-Texniki yaradıcılıq Mərkəzi yaradılmışdır. BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin yaradılmasında əsas məqsəd xüsusi istedadlı və bacarıqlı tələbələrin davamlı şəkildə layihələrə cəlb edilməsindən, onların yaradıcılıq potensialını üzə çıxarmaqdan, yaradıcı təfəkkürünü və tədqiqat motivasiyasını inkişaf etdirməkdən ibarətdir. Bu baxımdan ötən iki il ərzində Mərkəzdə tələbələr elmin müxtəlif sahələri üzrə tədqiqatlar aparıb, tədris prosesində əldə etdikləri bilikləri daha da gücləndiriblər. Mərkəzdə elektronika, materialşünaslıq və kimya mühəndisliyi, İT, proqramlaşdırma və süni intellekt təlimi, mexanika, mexatronika və robototexnika mühəndisliyi, ekologiya mühəndisliyi, astrofizika və kosmos elmləri üzrə dərnəklər fəaliyyət göstərir. Mərkəzin fəaliyyəti elmlə təhsilin vəhdəti əsasında qurulduğundan həyata keçirdiyi layihələr qısa müddətdə tələbələrin innovativ və tətbiq xarakterli tədqiqat bacarıqlarının formalaşmasına gətirib çıxardı. Mərkəz indi də müxtəlif səviyyələrdə elmi və texnoloji müsabiqələrdə uğur qazanmaları üçün tələbələrin müstəqil və komanda şəklində iş bacarıqlarını inkişaf etdirir.

Fəaliyyətin nəticəsi isə özünü çox gözlətmədi...

***BDU komandalarının "TEKNOFEST-2023"də böyük uğuru***

BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzində çalışan tələbə, magistrant və gənc tədqiqatçıların gərgin əməyi "TEXNOFEST-Azərbaycan" - Aviasiya, Kosmos və Texnologiya Festivalında uğurlu iştirakla özünü doğrultdu. 2022-ci ildə Mərkəzin komandaları "TEXNOFEST-Azərbaycan" festivalında öz layihələri ilə çıxış etdilər. "Aqrar texnologiyalar" müsabiqəsi üzrə "SAP (Super Absorbent Polymer) əsaslı hidrogellərin suvarmada tətbiqi və ağıllı suvarma sistemi" adlı layihə 2-ci, "Sosial yönümlü texnologiyalar" müsabiqəsi üzrə "Triboelektrik nanogeneratorlar əsasında görmə və eşitmə əngəlli insanlar üçün sensorların hazırlanması" adlı layihə isə 3-cü yerə layiq görüldü.

***Bunu BDU komandalarının TEKNOFEST-dəki sonrakı qələbələrinin müjdəçisi də saymaq olar.***

Ötən il BDU-nun komandaları İstanbulda keçirilən "TEKNOFEST-2023" Aerokosmik və Texnologiya Festivalında isə daha böyük uğura imza atdılar. Universitetin 4 komandası 6 layihə ilə "TEKNOFEST-2023"ün finalına vəsiqə qazandı. Onlardan "BSU Creativity Workz" komandası "Driver's Eye (avtomobil qəzalarını əvvəlcədən müəyyənləşdirərək sürücünü xəbərdar edən elektron sistem)" layihəsi ilə festivalda "Ağıllı nəqliyyat" kateqoriyası üzrə 109 finalçı arasında 1-ci yerə, "Humantek" komandası isə "Ağıllı damla sulama sistemi (torpağın mineral tərkibi, rütubət səviyyəsi, havanın temperaturu və təzyiqi kimi məlumatların toplanaraq mərkəzi stansiyaya naqilsiz ötürülməsi üçün əkin sahələrinin müxtəlif yerlərində günəş enerjisi ilə qidalanan kiçik stansiyalar)" layihəsi ilə "Aqrar texnologiyalar" kateqoriyasında 73 finalçı arasında 3-cü yerə layiq görüldü. "BSU Creativity Workz" komandası "Driver's Eye" layihəsi ilə Türkiyənin Ankara şəhərində 2023-cü il 30 avqust – 3 sentyabr tarixlərində keçirilmiş və 10 kateqoriya üzrə 2419 komandanın qatıldığı "TEKNOFEST-2023 - Girişim" yarışmasının final mərhələsində uğurla çıxış edərək, 3 qalib komandadan biri oldu!

"TEKNOFEST-2023"də yalnız BDU deyil, ümumilikdə ölkəmiz adına qazanılan bu möhtəşəm qələbə gənclərimizi yeni uğurlara və nailiyyətlərə sövq edir, onlarda elmi-tədqiqat fəaliyyəti üçün böyük stimul yaradır.




***Tələbələrin elmi tədqiqatlara təşviq olunmaları üçün BDU-da ən müxtəlif innovativ üsul və metodlar tətbiq olunur***

Son dövrlər BDU-da Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin fəaliyyətə başlaması ilə yanaşı, "Code for Future" layihəsi çərçivəsində tələbələrin ən müasir kompüterlərlə təchiz olunmuş auditoriyalarda proqramlaşdırma, sistem və şəbəkə inzibatçılığı üzrə bilik və bacarıqlarını artırmaları üçün şəraitin yaradılması onlarda elmə və təhsilə daha böyük maraq yaradıb. Əmək bazarının tələbləri nəzərə alınmaqla yeni ixtisas və ixtisaslaşmaların açılması da müsbət dinamika kimi izlənilir. BDU-da tələbələrin birbaşa iştirakı ilə bir çox layihələr yerinə yetirilir. Tələbələr elmi seminarlarda və konfranslarda məruzələrlə çıxış edir, elmi-tədqiqat mövzuları üzrə tədqiqatlara cəlb olunurlar. Tədris prosesində tələbələrə yeni elmi nəticələr haqqında məlumatlar verilir.




BDU-da tələbələr arasında olimpiada işinə xüsusi diqqət yetirilir. Azərbaycan Respublikasında fizika, riyaziyyat və kimya elmləri üzrə ixtisaslı mütəxəssislərin hazırlanmasının keyfiyyətini daha da yüksəltmək, istedadlı tələbələri aşkar etmək və dəstəkləmək, onları elmi-tədqiqat fəaliyyətinə cəlb etmək, habelə tələbələr arasında elmi bilikləri təbliğ etmək məqsədilə 2023-cü ildə BDU-da ali məktəb tələbələri arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş Fizika, Riyaziyyat və Kimya fənləri üzrə Respublika Olimpiadası keçirildi. Olimpiadalarda BDU ilə yanaşı, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Sumqayıt Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, ADA Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Bakı Ali Neft Məktəbi və Bakı Mühəndislik Universitetindən ümumilikdə Fizika fənni üzrə 61, Riyaziyyat fənni üzrə 94, Kimya fənni üzrə 60 tələbə iştirak etdi.

***BDU tələbələrinin 7 komandası dünyanın ən böyük robot festivalı olan "Robotex"in Türkiyə Avropa çempionatının qalibidir!***

BDU-nun tələbələrin elmi-tədqiqat mühitində formalaşması istiqamətində atdığı mühüm addımlar tələbələrimizin dünyanın ən böyük robot festivalı olan "Robotex"də qalibiyyət qazanmasına vəsilə oldu.

2024-cü il 2-3 mart tarixlərində keçirilən "Robotex" Azərbaycan Avrasiya Çempionatı Festivalında BDU-nu təmsil edən 7 komandadan 6-sı ("85 Games Studio" və "Brandenburg" komandaları 1-ci, "TechTitans" və "Humantek" komandası 2-ci, "AITech Group" və "BİLİG" komandaları 3-cü yeri) ilk üç yeri tutaraq qalib oldu. "QuantumTech" komandası isə Münsiflər heyətinin həvəsləndirici mükafatını qazanaraq növbəti mərhələdə iştirak hüququ əldə etdi. Beləliklə, BDU-nun 7 komandasının hər biri "Robotex"in Türkiyədə keçiriləcək növbəti mərhələsində iştirak hüququ qazandı.

Aprelin 20-21-də nüfuzlu robot festivalı olan "Robotex"in Türkiyənin Antalya şəhərində keçirilən yarımfinal mərhələsində isə BDU komandaları möhtəşəm uğura imza atdı. Xoş təsadüfdür ki, BDU-nun 7 komandasının hər biri Ümumdünya Yaradıcılıq və İnnovasiya Günündə - 21 aprel tarixində qalib oldu. 2 komanda ("85 Games Studio və "Humantek") yarışmada 1-ci, 2 komanda ("Bilig" və "Bradenburg") 2-ci, 3 komanda isə ("AiTech Group", "QuantumTech" və "TechTitans") 3-cü yerə layiq görüldü. Qalib komandalar "Robotex"in final mərhələsində iştirak hüququ qazanıblar.

Onu da qeyd edək ki, "Robotex Türkiyə"də dünyanın 11 ölkəsindən 19 fərqli kateqoriya üzrə 400-dən çox komanda, 2500-dən artıq iştirakçı yarışıb. Böyük uğura imza atan tələbələrimizi təbrik edirik!

Ölkənin aparıcı elm və təhsil müəssisəsi olan BDU-nun nəzdində yaradılmış müasir Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi işini həm də Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi ilə birgə qurur. Öz istedad və imkanlarına güvənən, xüsusilə də müsabiqələrin qalibləri olan innovativ, yaradıcı gənc tədqiqatçıların yeni nəsil alimləri kimi yetişdirilməsi məqsədilə yeni sənayeyönümlü laboratoriyalarda elmi fəaliyyətə cəlb olunurlar. Gənc tədqiqatçılar alimlər və peşəkar mütəxəssislərlə birgə sənaye və biznes sektorları üçün yeni həllərin hazırlanmasında iştirak edirlər. Hazırda Mükəmməllik Mərkəzində sənaye sektorları – neft və qaz sənayesi, mədənçilik, kənd təsərrüfatı və qida təhlükəsizliyi üzrə, tədqiqat istiqamətləri olaraq isə nano-texnologiyalar, molekulyar biologiya və virusologiya, biotexnologiya, sənaye kimyası, analitik kimya, ekologiya, Yer elmləri, astrokosmik və atmosfer elmləri, həmçinin rəqəmsal tədqiqatlar həyata keçirilir. Qeyd olunan sahələrdə sənaye sifarişi ilə bir sıra layihələrin icra olunur. BDU, elmi nəticələrin kommersiyalaşdırılması işini də uğurla qura bilib. Qarşıda isə böyük cəlbedici planlar və cəsarətli ideyaların reallaşdırılması kimi işlər durur.

# BDU-da tələbələrin IV Respublika konfransı: "Elektron kataloq – yüksək informasiya texnologiyalarının nəticəsi kimi"

***Aprelin 29-da İnformasiya və sənəd menecmenti fakültəsinin və Tələbə Elmi Cəmiyyətinin (TEC) birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Elektron kataloq – yüksək informasiya texnologiyalarının nəticəsi kimi" mövzusunda tələbələrin IV Respublika konfransı keçirilib.***

Konfransı giriş sözü ilə açan BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru, professor Mais Süleymanov Universitetdə elmi-tədqiqat işlərinin məzmununun yenilənməsi, tələbələrin bu prosesə cəlb edilməsi istiqamətində atılmış mühüm addımlar barədə məlumat verib: "Bu mənada İnformasiya və sənəd menecmenti fakültəsinin təşkilatçılığı ilə artıq ənənə halını alan "Elektron kataloq – yüksək informasiya texnologiyalarının nəticəsi kimi" mövzusunda Respublika konfransı xüsusi əhəmiyyətə malikdir. Artıq dördüncüsü keçirilən konfrans tələbələrdə elmi fəaliyyətə böyük maraq yaradacaq, onların bu istiqamətdə gələcək fəaliyyətlərini təşviq edəcək".




Açılış mərasimində Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Mərkəzi Elmi Kitabxanasının (MEK) direktoru, dosent Hüseyn Hüseynov, BDU-nun Sənəd menecmenti kafedrasının müdiri, dosent Nadir İsmayılov, BDU-nun Elmi Kitabxanasının direktoru, dosent Nigar İsmayılova, Firudin bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru, Əməkdar mədəniyyət işçisi Şəhla Qəmbərova, AMEA MEK-in elektron xidmətlər və informasiya resursları üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru Oruc Quliyev çıxış edərək tədbirin əhəmiyyətindən bəhs edib, iştirakçılara uğurlar arzulayıblar.

İnformasiya və sənəd menecmenti fakültəsi üzrə TEC-in elmi rəhbəri, dosent Rəşad Qardaşov bildirib ki, tədbirin keçirilməsində məqsəd kitabxana-informasiya fəaliyyətində elektron kataloqların və avtomatlaşdırma proseslərinin müasir vəziyyətini və perspektivlərini araşdırmaq, tələbələrdə elmi tədqiqata marağı artırmaq, bu istiqamətdə olan elmi nəticələri müzakirə etməkdir. Builki konfransda tədqiqat obyekti kimi xüsusi təyinatlı ali təhsil müəssisələrinin kitabxanalarının iş təcrübəsinin seçildiyini diqqətə çatdıran Rəşad Qardaşov tələbələrə araşdırma aparmaq üçün şərait yaratdıqlarına görə həmin müəssisələrin rəhbərlərinə, kitabxana əməkdaşlarına təşəkkürünü bildirib.

Respublika konfransında BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin tələbələri Müdafiə Nazirliyinin Milli Müdafiə Universiteti, Daxili İşlər Nazirliyinin Polis Akademiyası, Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası, Fövqəladə Hallar Nazirliyinin Akademiyası və Dövlət Gömrük Komitəsinin Akademiyasının kitabxanalarının iş təcrübəsinin tədqiqi əsasında hazırladıqları təqdimatları nümayiş etdiriblər. Təqdimatlarda xüsusi təyinatlı ali təhsil müəssisələrinin kitabxanalarında rəqəmsallaşdırma prosesləri, istifadə səmərəliliyi, elektron kataloqun axtarış imkanları barədə geniş məlumat verilib, müqayisəli təhlillər aparılıb, təkliflər irəli sürülüb.

Təqdimatların nümayişindən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin rektoru vəzifəsini icra edən, Vətən Müharibəsi Qəhrəmanı, polkovnik Nizami Mövlanov, Milli Müdafiə Universitetinin professoru Mehman Süleymanov, Polis Akademiyasının Elmi-tədqiqat və redaksiya-nəşriyyat şöbəsinin rəisi, polis mayoru Fəxri Vəliyev, Ədliyyə Akademiyasının Elmi-tədqiqat və doktorantura şöbəsinin rəisi, hüquq elmləri doktoru Vüsal Əhmədov, Gömrük Komitəsinin Akademiyasının rəis müavini, gömrük xidməti polkovniki, professor Cəmilə Namazova və Fövqəladə Hallar Nazirliyinin Akademiyasının kitabxanasının rəisi, daxili xidmət leytenantı Şəlalə Həziyeva təmsil etdikləri müəssisələrin kitabxanalarının fəaliyyətinin tədqiqini yüksək qiymətləndirib, konfransın təşkilinə görə BDU rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# BDU-nun SABAH qruplarının tələbəsi "Qlobal Tələbə Mübadiləsi Proqramı"nın qalibi olub

***Aprelin 29-da Bakı Dövlət Universitetinin SABAH qruplarının Hüquqşünaslıq ixtisasının II kurs tələbəsi Məsmə Əliyeva ABŞ Dövlət Departamentinin Təhsil və Mədəniyyət Bürosu tərəfindən maliyyələşdirilən "Qlobal Tələbə Mübadiləsi Proqramı" (UGRAD) üzrə müsabiqənin qalibi olub.***

Qeyd edək ki, UGRAD proqramı Beynəlxalq Tədqiqat və Mübadilə Şurası (IREX) tərəfindən həyata keçirilən mədəniyyət və təhsil proqramıdır.



Bu proqram I, II və III kurs tələbələrinə müəyyən imtahanları uğurla verdikdən sonra Amerika univeristet və kolleclərində bir il ödənişsiz təhsil almaq imkanı verən ən uğurlu proqramlardan biridir. Proqram ötən əsrin 90-cı illərinin əvvəllərindən Azərbaycanda fəaiyyət göstərir.

Proqramın iştirakçıları icmalarını inkişaf etdirmək istəyən gənc liderlərdir. Proqram zamanı UGRAD üzvləri Amerika cəmiyyətini, mədəniyyətini və akademik təhsilini öyrənirlər. Onlar həm də ictimai işlərdə iştirak edir, peşə bacarıqlarına yiyələnirlər.

# BDU-da Məhəmməd Füzulinin 530 illik yubileyinə həsr olunmuş elmi seminar

***Aprelin 29-da Filologiya fakültəsinin Türkologiya kafedrasının nəzdində fəaliyyət göstərən "Türkoloji araşdırmalar" elmi-tədqiqat laboratoriyasında Məhəmməd Füzulinin 530 illik yubileyinə həsr olunmuş elmi seminar keçirilib.***

"Türkoloji dilçilikdə Məhəmməd Füzulinin dilinə dair görüşlər" alı elmi seminarda kafedra və laboratoriya əməkdaşları, Tələbə Elmi Cəmiyyətinin üzvləri iştirak ediblər. Seminarda mövzu ilə bağlı üç məruzə dinlənilib.

BDU-nun Türkologiya kafedrasının müdiri, professor Məhərrəm Məmmədov dünya türkologiyasında Məhəmməd Füzuli irsinin tədqiqi ilə bağlı görülən işlərdən söz açıb, şairin özünəxas zəngin üslubunun daim dil tarixçilərinin diqqət mərkəzində olduğunu vurğulayıb.

"Bəkir Çobanzadənin elmi yaradıcılığında Məhəmməd Füzuli irsi" adlı məruzə ilə çıxış edən laboratoriyanın elmi işçisi Pərvin Eyvazov görkəmli türkoloq Bəkir Çobanzadənin "Füzuli və onun yeri" adlı məqaləsində şairin dili ilə bağlı mühüm tezisləri diqqətə çatdırıb, onu müasir dilçilik araşdırmaları ilə müqayisə edib.

Filologiya üzrə fəlsəfə doktoru Ramil Bayramov "Akademik Tofiq Hacıyev Məhəmməd Füzulinin dili haqqında" adlı məruzəsində mərhum alimin Füzulinin dilinə dair sistemli elmi baxışlarından, görkəmli şairin ədəbi dil tariximizdə mühüm mərhələ təşkil etməsinə dair nəzəri cəhətdən əsaslandırılmış fikirlərindən danışıb.

Laboratoriyanın elmi işçisi Suqra Rəhmanovanın "Füzuli dilinin leksi-



kasına dair görüşlər" adlı məruzəsində isə dahi şairin əsərlərinin lüğət tərkibi ilə bağlı dil tarixşünaslığındakı araşdırmalardan söz açılıb.

Türkologiya kafedrasının dosenti, dil tarixçisi İslam Vəliyev məruzələrdə qoyulan məsələlərə münasibət bildirib, şairin əsərlərinin əlyazmalarının dil-üslub özəlliklərinə, bu istiqamətdə ortaya çıxan müxtəlifliyin türkoloji dilçilikdə yaratdığı mübahisələrə nəzər yetirib.

Elmi seminar mövzu ətrafında aparılan müzakirələrlə başa çatıb.

# "I Gənc mədəniyyət müxbirləri məktəbi"nin növbəti təlimi



***Aprelin 29-da BDU-da "Dünya ədəbiyyatı" dərgisinin baş redaktoru, "525-ci qəzet"in baş redaktor müavini Seyfəddin Hüseynlinin iştirakı ilə "I Gənc mədəniyyət müxbirləri məktəbi" layihəsi çərçivəsində növbəti təlim keçirilib.***

Jurnalistikanın etik kodeksləri, mətbuatın yazılmayan qanunları barədə fikirlərini bölüşən təlimçi mədəniyyət sahəsi üzrə ixtisaslaşmaq arzusunda olan jurnalistlərin bilməli olduqları xüsusi nüansları izah edib. Təlimçi bildirib ki, yaxşı mədəniyyət müxbiri olmaq istəyən şəxs yazının janrını, maraq dairəsini əvvəlcədən müəyyənləşdirməli, mədəni irsimizi yaxşı bilməli və ədəbi, mədəni prosesi yaxından izləməlidir.

Seyfəddin Hüseynli 20 illik redaktor təcrübəsini, peşə fəaliyyəti ərzində qarşılaşdığı maraqlı hadisələri tələbələrlə bölüşüb. Auditoriyanın suallarını cavablandıran qonaq ilkin qələm təcrübəsi kimi tələbələrə təəssüratlarını yazmağı tövsiyə edib və bildirib ki, "525-ci qəzet"in qapıları istedadlı gənclərin üzünə həmişə açıqdır.

Qeyd edək ki, BDU-nun Jurnalistika fakültəsi, Azərbaycan Mətbuat Şurası və "525-ci qəzet"in birgə təşkilatçılığı ilə həyata keçirilən "I Gənc mədəniyyət müxbirləri məktəbi" layihəsinin məqsədi mədəniyyət sahəsi üzrə püxtələşmək arzusunda olan tələbələrin inkişafına təkan verməkdir. Layihə çərçivəsində bu sahədə imzası tanınan şəxslərin təlimlərinin keçirilməsi, tələbələrin mədəni-kütləvi tədbirlərə cəlb olunması, öyrəndiklərini tətbiq etmək üçün materialların hazırlanması və işıqlandırılması, sonda isə "I Gənc mədəniyyət müxbirləri məktəbi"nin xüsusi sertifikatının verilməsi nəzərdə tutulur.

# BDU-nun Qazax filialında inklüziv təhsilə dair II Beynəlxalq elmi-praktiki konfransın regional bölməsinin iclası olub

***Aprelin 20-də BDU-nun Qazax filialında "İnklüziv təhsildən inklüziv cəmiyyətə" (İTİC 2024) adlı II Beynəlxalq elmi-praktiki konfransın regional bölməsinin iclası olub.***

Konfrans Elm və Təhsil Nazirliyi, BDU və Bakı Slavyan Universitetinin birgə təşkilatçılığı ilə keçirilib.

BDU-nun prorektoru Şahin Pənahov qeyd edib ki, Azərbaycanda inklüziv təhsilin təşkili sahəsində mühüm işlər görülüb və müvafiq qanunvericilik bazası formalaşdırılıb. Azərbaycanda "İnklüziv təhsil layihəsi"nin icrasına 2005-ci ildən start verilub. Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq olunan "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" da sağlamlıq imkanları məhdud uşaqların təhsil hüququnu təhsilin bütün pilləlləri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməsində və onların təhsili üçün maneəsiz mühit yaradılmasında geniş imkanlar yaratmaqdadır.

BSU rektoru Anar Nağıyev konfransın sağlamlıq imkanları məhdud olan şəxslərin inklüziv təhsilə cəlb olunması yollarını araşdırmaq, onların cəmiyyətə inteqrasiyası ilə



bağlı gələcək addımları müəyyənləşdirmək məqsədini daşıdığını bildirib. Qeyd edib ki, inklüziv təhsil istər sağlam, istərsə də sağlamlıq imkanları məhdud uşaqların bərabər təhsilalma hüquqlarını təmin edir və bu, cəmiyyətdə sosial bərabərliyin qorunmasına şərait yaradır.

BSU-nun Təhsil fakültəsinin dekanı Sevinc Axundova, BDU-nun Ümumi pedaqogika kafedrasının müdiri Ləzifə Qasımova, Qazax-Tovuz Regional Təhsil İdarəsinin Qazax rayonu üzrə təhsil sektorunun müdiri Ruslan Rzayev çıxışlarında inklüziv təhsil sahəsində görülən işlərdən söz açıblar.

Sonra məruzələr dinlənilib. BDU-nun Qazax filialının Pedaqoji fakültəsinin dekanı Hamlet İlyasov "Fiziki məhdudiyyətli şagirdlərlə fiziki tərbiyə fənninin təşkili", Pedaqoji fənlər kafedrasının baş müəllimi Lamiyə Hacımuradova "Azərbaycanda inklüziv təhsilin inkişafı", BSU-nun İbtidai təhsil kafedrasının baş müəllimi Arzu Məmmədova "Ali təhsil müəssisələrində inklüziv təhsilin məzmununun təkmilləşdirilməsi", Gəncə Dövlət Universitetinin müəllimi Göyçək Pirverdiyeva "İnklüziv təhsili vacib edən əsas xüsusiyyətlər", Qazax filialının müəllimlərindən Ayşən Qasımova "Sağlamlıq imkanları məhdud olan uşaqların sosiallaşması və cəmiyyətə inteqrasiyası", Nuridə Quliyeva "İnklüziv siniflərdə ibtidai sinif şagirdlərinin sosiallaşması", Vəfa İlyasova "İnklüziv təhsilin məktəb səviyyəsində təşkilinə verilən tələblər", Gövhər Məmmədtağıyeva "İnklüziv siniflərdə autizm spektrli şagirdlərin adaptasiyası", Ələviyyə Ömərova "İnklüziv siniflərdə tədrisin təşkili", Gülnar Abdullayeva "İnklüziv təhsilin əsas partnyorları" və Aybəniz Murğuzova "İnklüziv təhsilin əmək bazarına uyğunlaşdırılması" mövzularında məruzə ilə çıxış ediblər.

Tədbirin sonunda bölmə iştirakçılarına sertifkatlar təqdim edilib.

# "Robotex Türkiyə"nin qalibi olan BDU komandaları böyük coşqu ilə qarşılanıb

***20-21 aprel tarixlərində dünyanın ən böyük robot festivalı olan "Robotex"in Türkiyənin Antalya şəhərində keçirilən yarımfinalında BDU-nu uğurla təmsil edərək qələbə qazanan komandalarımız Vətənə qayıdıblar.***



Heydər Əliyev adına Beynəlxalq Hava Limanında BDU-nun qalib "Robotex" komandalarını Universitetin tələbə və əməkdaşları böyük təntənə və sevinclə qarşılayıblar.

Qeyd edək ki, BDU-nun festivalda iştirak edən 7 komandasının hər biri qalib olub. BDU-nun 2 komandası ( ("85 Games Studio və "Humantek") yarışmada I, 2 komandası ("Bilig" və "Bradenburg") II, 3 komandası isə ("AiTech Group", "QuantumTech" və "TechTitans") III yerə layiq görülüb.

Estoniyada əsası qoyulan "Robotex" festivalı dünyanın ən böyük robot yarışması hesab edilir. "Robotex Türkiyə"də dünyanın 11 ölkəsindən 19 fərqli kateqoriya üzrə 400-dən çox komanda, 2500-dən artıq iştirakçı yarışırdı. Qalib komandalar "Robotex"in final mərhələsində iştirak hüququ qazanıblar.

# XİN-in mətbuat katibi Ayxan Hacızadə Jurnalistika fakültəsində qonaq olub

***Aprelin 26-da Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə Jurnalistika fakültəsinin tələbələri ilə görüşüb.***

Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev qonağı təqdim edərək, bu cür görüşlərin tələbə-jurnalistlərin beynəlxalq jurnalistika, xarici siyasət sahələri üzrə praktiki biliklər əldə etmələrində, Azərbaycanın informasiya məkanına qarşı yönələn təhdidlər, dezinformasiyalarla mübarizə yollarını öyrənmələrində mühüm rol oynayacağını bildirib. Görüşün təşkilinə görə Universitet rəhbərliyinə minnətdarlığını çatdıran Ayxan Hacızadə tələbələrlə ünsiyyətdən məmnunluğunu dilə gətirib.

O, XİN-in fəaliyyəti, xarici siyasət kommunikasiyası, rəqəmsal diplomatiya, ictimai diplomatiya, mətbuat xidmətinin iş prinsipləri, böhran vəziyyətlərində kommunikasiya haqqında ətraflı məlumat verib. Ayxan Hacızadə qeyd edib ki, fakültədə yaradılmış maddi-texniki baza jurnalist peşəsinə verilən qiymətin nümunəsidir.

Ayxan Hacızadə XİN tərəfindən təşkil olunan könüllülük proqramlarından da söz açıb, bu cür görüşlərin tələbə-jurnalistlərin gələcək karyeralarında özünəməxsus yer tuta biləcəyini xatırladıb. XİN sözçüsü qeyd edib ki, tələbələr gələcək fəaliyyətlərində istəkləri üzrə xüsusi imtahan mərhələlərindən keçərək, diplomatiya sahəsində işlə təmin oluna bilərlər. Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

# BDU-da icbari tibbi sığorta ilə bağlı infosessiya

***Aprelin 22-də BDU-nun Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin əməkdaşları tərəfindən tələbələr üçün infosessiya keçirilib.***

Agentliyin İctimaiyyətlə əlaqələr departamentinin şöbə müdiri Leyla Lətifova qurumun fəaliyyət istiqamətləri haqqında məlumat verib. Diqqətə çatdırıb ki, Azərbaycanda əhalinin sağlamlığının qorunması və zəruri tibbi xidmətlərin göstərilməsi işini təkmilləşdirmək məqsədilə ölkə ərazisində 2021-ci ildən etibarən icbari tibbi sığorta sistemi tətbiq olunur. Hər bir vətəndaş sistemdən yararlanmaqla keyfiyyətli tibbi xidmətdən istifadə edə bilər. Bu baxımdan müvafiq hədəf qrupları, o cümlədən tələbələrlə maarifləndirmə işlərinin aparılması olduqca əhəmiyyətlidir.

Daha sonra Agentliyin əməkdaşı Fuad Bayramov icbari tibbi sığortanın Xidmətlər Zərfi, müraciət qaydaları haqqında təqdimatlar edib.

Sonda tələbələrin tibbi sığortadan istifadəyə dair sualları cavablandırılıb.

# BDU-nun dünyanın ən böyük robot festivalı olan "Robotex Türkiyə"də möhtəşəm uğuru: 7 komandamızın hamısı qalibdir!

***BDU 20-21 aprel tarixlərində dünyanın ən böyük robot festivalı olan "Robotex"in Türkiyənin Antalya şəhərində keçirilən yarımfinal mərhələsində möhtəşəm uğura imza atıb.***

BDU-nun yarışmada iştirak edən 7 komandasının hər biri qalib olub.

Belə ki, BDU-nun 2 komandası ( "85 Games Studio və "Humantek") yarışmada I, 2 komandası ("Bilig" və "Bradenburg") II, 3 komandası isə ("AiTech Group", "QuantumTech" və "TechTitans") III yerə layiq görülüb.

Bu dəfə "Robotex" yarışmasında "Yaşıl sahibkarlıq" kateqoriyasında I yerə layiq görülən "Humantek" komandasının layihəsi ötən il Türkiyədə keçirilən "TEKNOFEST 2023"də III yeri qazanıb.

Estoniyada əsası qoyulan "Robotex" festivalı dünyanın ən böyük robot yarışması hesab edilir. "Robotex Türkiyə"də dünyanın 11 ölkəsindən 19 fərqli kateqoriya üzrə 400-dən çox komanda, 2500-dən artıq iştirakçı yarışırdı. Qalib komandalar "Robotex"in final mərhələsində iştirak hüququ qazanıblar.

Bu böyük qələbə münasibətilə BDU-nun qalib komandalarını və bütün Universitet kollektivini təbrik edirik!

# BDU və ETSN-in təşkilatçılığı ilə ağacəkmə aksiyası

***Aprelin 29-da BDU və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Bakının Müşfiqabad qəsəbəsində ağacəkmə aksiyası keçirilib.***

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində keçirilən aksiya zamanı Nazirliyin əməkdaşları, ekokönüllüləri, BDU-nun Ekoloji kimya kafedrası, Ekologiya və torpaqşünaslıq fakültəsinin müəllim-tələbə heyəti və "BDU könüllüləri"nin iştirakı ilə ərazidə Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun Eldar şamı və zeytun ağacları əkilib.

Ekoloji davamlılıq, yaşıllıq zonalarının bərpası və genişləndirilməsini təşviq edən tədbirin məqsədi ictimaiyyətin diqqətini ətraf mühitin sağlamlaşdırılmasına, yaşıllıqların artırılmasına yönəltmək və iqlim dəyişikliyi ilə mübarizəyə töhfə verməkdir.

## BDU alimləri Yekaterinburqda beynəlxalq elmi konfransda çıxış ediblər

***Aprelin 9-da Tarix fakültəsinin Azərbaycan tarixi kafedrasının müdiri, dosent Azad Rzayev və Slavyan ölkələri tarixi kafedrasının müdiri, dosent Abutalıb Cəlilov Rusiyanın Yekaterinburq şəhərində XXI əsrdə tarix-filologiya üzrə komparativ tədqiqatlara həsr olunmuş beynəlxalq elmi konfransda iştirak ediblər. Səfər 2019-cu ildə Ural Federal Universiteti ilə bağlanmış müqavilə əsasında baş tutub.***



Dosent Abutalıb Cəlilov konfransın plenar iclasında "BDU-nun Tarix və Filologiya fakültələri: tarix və müasirlik" mövzusunda çıxış edib.

"Heydər Əliyev - dirçəliş dövrü" mövzusunda məruzə edən dosent Azad Rzayev isə Ümummilli Lider Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi bütün zamanlarda həyata keçirdiyi uğurlu daxili və xarici siyasət, iqtisadi islahatlar, demokratikləşmənin Azərbaycanın sosial-iqtisadi inkişafına zəmin yaratdığını diqqətə çatdırıb.

Səfər çərçivəsində Yekaterinburqda aktiv fəaliyyət göstərən Azərbaycan diasporasının sədri Şahin Şıxlınski ilə də görüş keçirilib.

## Filologiya fakültəsində tanınmış yazıçı-jurnalist Varis Yolçuyevlə görüş

***Aprelin 25-də Filologiya fakültəsinin "Söz" Yaradıcılıq Birliyinin təşəbbüsü ilə tanınmış yazıçı, Əməkdar jurnalist, Azərbaycan Yazıçılar Birliyinin, Rusiya Yazıçılar İttifaqının, Beynəlxalq Yazıçılar Gildiyasının üzvü Varis Yolçuyevlə görüş keçirilib.*** Görüşdə fakültənin professor-müəllim heyəti və tələbələri iştirak ediblər.

Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Məti Osmanoğlu BDU-nun Filologiya fakültəsinin məzunu olan tanınmış yazıçının ədəbi yaradıcılığı haqqında məlumat verib, xüsusilə onun "Qızıl cib saatı" romanının ədəbi məziyyətlərini yüksək qiymətləndirib. Sonra "Bestseller yazmağın sirləri" mövzusunda çıxış edən Varis Yolçuyev tələbələrə ədəbi yaradıcılığın metodları, psixoloji və sosioloji məqamları haqqında danışıb, yaradıcılıq zirvəsinə gedən yolda qarşıya çıxan çətinliklərin dəf edilmə yollarından söz açıb, təcrübəsini bölüşüb.

Sonda tələbələrin suallarını cavablandıran yazıçı onlara imzalı kitablarını hədiyyə edib.

# BDU-da "Türk otağı" açılıb

***Aprelin 26-da BDU-da "Türk otağı" açılıb.***



Açılış mərasimində çıxış edən BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev "Türk otağı"nın açılmasının Azərbaycan və Türkiyənin qardaşlıq münasibətlərinin daha da inkişafı naminə fəaliyyət göstərəcək mütəxəssislərin hazırlanması üçün böyük əhəmiyyət daşıdığını qeyd edib. Bildirib ki, BDU-da Türkiyə üzrə, türk dili, ədəbiyyatı, tarixi ilə bağlı fənlər tədris olunur, elmi tədqiqatlar aparılır. Məzunlarımız ölkəmizi həm elmi, mədəni, həm də siyasi sahədə təmsil edirlər. Türk otağında olan ədəbiyyat, əyani vəsaitlər Türk filologiyası, regionşünaslıq (Türkiyə üzrə) ixtisası üzrə kadr hazırlığına töhfə verəcəkdir.

Bakı Yunus Əmrə İnstitutunun rəhbəri Səlçuk Karakılıç, Türkiyə səfirliyinin müşavirləri Zeynəb Kıvılcım və Muhittin Macit, Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan, Türk filologiyası kafedrasının müdiri Rüfət Rüstəmov çıxışlarında qeyd ediblər ki, BDU-da "Türk otağı"nın açılması Azərbaycan-Türkiyə qardaşlığına, iki ölkənin elmi, mədəni əlaqələrinə böyük töhfədir və strateji mahiyyət daşıyır. Türk dünyasının bir hissəsi olan Azərbaycan qardaş ölkənin regionunun, dilinin, mədəniyyətinin təbliği sahəsində genişmiqyaslı işlər aparır. Türk filologiyası kafedrası da bu əhəmiyyətli prosesin əsas dəstəkçilərindəndir. "Türk otağı"nın açılması tələbələrin tədris prosesində türk mühiti ilə daha yaxından təmasda olması üçün əhəmiyyətlidir.

## BDU-da yeni antimikrob təbiətli birləşmələrə dair tədqiqatlar aparılır

***Aprelin 29-da BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin (TİİMM) mərkəzləşdirilmiş elmi seminarı keçirilib.***

Tədbirdə BDU rektoru Elçin Babayev, TİİMM-in inzibati heyəti, sektor və elmi-tədqiqat laboratoriyalarının rəhbərləri, əməkdaşları, əlaqəli mövzularda tədqiqat işləri aparan alim və mütəxəssislər iştirak ediblər.

Mərkəzin cari və gələcək fəailiyyəti haqqında qısa məlumat verildikdən sonra Mikrobiologiya və virusologiya elmi-tədqiqat laboratoriyasının (ETL) böyük elmi işçisi, biologiya üzrə fəlsəfə doktoru Aygün İsrayılova dinləyicilərə "Patogen bakteriyalarla mübarizədə yeni antimikrob təbiətli birləşmələrin axtarışı" mövzusunda icmal məruzə təqdim edib. Aygün İsrayılova antibiotikə davamlı müxtəlif qram müsbət və qram mənfi bakteriyalarla mübarizədə istifadə olunan yeni sintetik birləşmələr barəsində məlumat verib. O, Fulbrayt Səfər Təqaüd Proqramı çərçivəsində ABŞ-nin Emori Universitetinin İnsan Saglamlığının Öyrənilməsi Mərkəzində yerinə yetirdiyi elmi-tədqiqat işi barəsində məruzə edib. Tədqiqat zamanı BDU əməkdaşı müxtəlif bitki ekstraktlarının patogen bakteriya olan Burkholderia cinsinin müxtəlif ştammlarına qarşı aktivliyini, həmçinin bitki ekstraktlarından aktiv molekulların ayrılması, müxtəlif təbii və sintetik birləşmələrin sitotoksik və virulentlik aktivliyini öyrənib.

## Türkiyəli professor BDU-nun SABAH qruplarının tələbələrinə mühazirə oxuyub

***Aprelin 17-də BDU-nun SABAH qruplarının Tarix müəllimliyi ixtisası üzrə III kurs tələbələrinin "Osmanlı tarixi" dərsində "Osmanlının yerləşdirmə tarixi və yoxa çıxmış kəndlər" mövzusunda mühazirə keçirilib.*** Mühazirəni "Erasmus" mübadilə proqramı çərçivəsində BDU-ya gələn Türkiyənin Tokat Qaziosmanpaşa Universitetinin Tarix bölümünün rəhbəri, professor Alpaslan Demir oxuyub.

Mühazirədə professor Alpaslan Demir Türkiyənin Elmi və Texnoloji Tədqiqat Şurası (TÜBİTAK) tərəfindən maliyyələşdirilən "Yoxa çıxmış kəndlər" layihəsi haqqında məlumat verib. Bildirib ki, layihə çərçivəsində Türkiyənin Konya, Manisa və Sivas şəhərlərinə bağlı yoxa çıxmış kəndlərlə bağlı araşdırma aparılıb. Ümumilikdə Türkiyə coğrafiyasında 50-60%-ə qədər yoxa çıxmış kəndin olduğu müəyyənləşdirilib. Mühazirədə bu problemin səbəb və nəticələri haqqında ətraflı məlumat verilib.

Sonra professor Alpaslan Demir tələbələrin suallarını cavablandırıb.

## BDU aliminin yeni monoqrafiyası nəşr olunub

***Aprelin 18-də İnformasiya və sənəd menecmenti fakültəsinin Redaksiya-nəşriyyat işi kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru Leyla Abasovanın yeni monoqrafiyası nəşr olunub.***




"Azərbaycan kitab tarixi" adlı monoqrafiyanın elmi redaktorları dosentlər Ələmdar Cabbarlı və Knyaz Aslan, nəşriyyat redaktoru Əməkdar mədəniyyət işçisi, yazıçı-publisist Mustafa Çəmənli, rəyçiləri professor Kamandar Şərifli, dosentlər Nadir İsmayılov və Nailə Mehrəliyevadır.

BDU-nun Elmi Şurasının 29 dekabr 2023-cü il tarixli iclasının qərarı ilə nəşr edilən monoqrafiyada milli kitab tariximizin obyekti, predmeti, funksiyaları, milli kitab anlayışı şərh olunub, yazı və əlifbanın yaranması, formalaşması xronoloji inkişafda izlənilib. Kitabda "Avesta" və "Kitabi-Dədə Qorqud" kimi yazılı abidələrimizin dil, əlifba, məzmun, çap baxımından araşdırılması və digər tədqiqat xarakterli mövzular əksini tapıb. İlk hissəsi işıq üzü görən monoqrafiyanın növbəti cildlərinin də nəşri nəzərdə tutulur.

## Türkiyənin Mərmərə Universitetinin dosenti BDU-nun SABAH qruplarının tələbələrinə ustad dərsi deyib

***Aprelin 26-da Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və SABAH qruplarının təşkilatçılığı ilə Türkiyənin Mərmərə Universitetinin dosenti Durmuş Ümmet Bakı Dövlət Universitetinin SABAH tələbələrinə "Həll yönümlü terapiya: qaydalar və metodlar" mövzusunda ustad dərsi keçib.***

Tədbirdə SABAH İcra Komitəsinin rəhbərliyi, digər ali təhsil müəssisələrinin nümayəndələri, professor-müəllim heyəti, tələbə və doktorantlar iştirak ediblər.

Məruzəçi tərəfindən qısamüddətli həllə yönəlmiş terapiyanın tarixi, fəlsəfəsi və əsas fərziyyələri, ilk seans quruluşu, pasient ilə terapevtik ittifaqın qurulması, "Vaka analizləri" təhlil edilib. Ustad dərsində pozitiv düşüncənin çoxaldılması, problemləri həll etməyin optimal yolları ilə bağlı fikir mübadiləsi aparılıb.Ustad dərsi interaktiv şəkildə davam edib və tələbələri maraqlandıran suallar cavablandırılıb.

# Mətbuat Şurasının İdarə Heyətinin üzvü Azər Həsrət Jurnalistika fakültəsinin tələbələri ilə görüşüb

*Aprelin 3-də Mətbuat Şurasının İdarə Heyətinin üzvü, Əməkdar jurnalist, “Bayraqdar media”nın (bayraqdar.info) baş redaktoru Azər Həsrət Jurnalistika fakültəsinin ingilis bölməsinin tələbələri ilə görüşüb.*



Fakültənin dekanı Vüqar Əliyev qonaqla bağlı tələbələri məlumatlandırıb.

Çıxış edən Azər Həsrət beynəlxalq təşkilatların media azadlığı, media etikası, onlayn etika və jurnalist məsuliyyəti ilə bağlı fikirlərini tələbələrlə bölüşüb. O, əcnəbidilli jurnalistlərə böyük ehtiyac olduğunu vurğulayaraq, xarici ölkələrin aparıcı media orqanlarının iş təcrübəsi barədə danışıb.

Azər Həsrət mətbuatda müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin stimullaşdırılması, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılmasına daha münbit şəraitin yaradılmasından da bəhs edib.

Diskussiya şəklində keçən görüş tələbə-jurnalistlərin çoxsaylı suallarının cavablandırılması ilə yekunlaşıb.

# BDU-da İTV-nin baş direktorunun müavini ilə görüş

*Aprelin 19-da İctimai Televiziyanın (İTV) baş direktorunun müavini, "Diqqət mərkəzi" siyasi tok-şousunun aparıcısı Murad Hüseynov Jurnalistika fakültəsinin III kurs tələbələri ilə görüşüb.*

Əvvəlcə Yeni media və kommunikasiya nəzəriyyələri fənninin müəllimi Nüşabə Hüseynova tələbələrə qonağın fəaliyyəti barədə məlumat verib, onun televiziya sahəsindəki iş təcrübəsindən söz açıb.

Görüşün təşkilinə görə Universitet rəhbərliyinə minnətdarlığını bildirən Murad Hüseynov gənclərlə ünsiyyətdən məmnunluğunu diqqətə çatdırıb. O, televiziya jurnalistikasının özəllikləri, təməl prinsipləri, iş xüsusiyyətləri, kommunikasiya texnologiyalarının inkişafının jurnalistikaya təsiri barədə ətraflı məlumat verib. Tələbə-jurnalistlərin praktik vərdişlərinin formalaşmasının əhəmiyyətindən danışan qonaq gəncləri İctimai Televiziyaya təcrübə keçməyə dəvət edib: “Universitetdə toplanan nəzəri biliklərlə yanaşı, birbaşa media mühitində çalışmaq tələbələrin peşəkar jurnalist kimi yetişməsinə fayda verəcək”.

Görüşdə iştirak edən fakültə dekanı Vüqar Əliyev, Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri Aynur Nəsirova, Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri Xatirə Hüseynova belə tədbirlərin gənclərin təhsili və günyagörüşünün inkişafında səmərəsindən bəhs ediblər.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

# “BDU məzunları” layihəsi çərçivəsində millət vəkili, yazıçı Aqil Abbasla görüş

*Aprelin 17-də BDU-nun 105 illik yubileyinə həsr olunmuş “BDU məzunları” layihəsi çərçivəsində Milli Məclisin üzvü, yazıçı, jurnalist Aqil Abbasla tələbələrin görüşü keçirilib.*



Universitetin sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev qeyd edib ki, BDU fəaliyyət göstərdiyi 105 il ərzində zəngin tarixi yol keçib və ölkənin ictimai, siyasi, elm, təhsil, mədəni həyatında böyük rol oynayıb. BDU bu illər ərzində xalqımızın maariflənməsinə, milli düşüncənin inkişafına, yüksəkixtisaslı kadrların yetişməsinə əvəzsiz töhfələr verib. Əliş Ağamirzəyev qeyd edib ki, yubileylə əlaqədar BDU-nun Tədbirlər Planı təsdiqlənib və il ərzində icra olunacaq: “Hər bir universitetin 3 ən böyük dəyəri var. Bunlar onun məzunları, alimləri və tələbələridir. “BDU məzunları” layihəsinin əsas məqsədi də Universitetin tanınmış məzunları ilə tələbələrin görüşünü təşkil etmək, onları daha yaxından tanıtmaqdır”.

Tədbirin moderatoru, BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı Ələmdar Cabbarlı Aqil Abbasın həyat və yaradıcılığı haqqında tələbələrə məlumat verib. Bildirib ki, Filologiya fakültəsinin məzunu olan Aqil Abbas əmək fəaliyyətinə müəllim kimi başlayıb. O, müasir Azərbaycan jurnalistikasının və çağdaş ədəbiyyatımızın ən görkəmli nümayəndələrindən biridir. O, həm də ictimai-siyasi xadimdir, Milli Məclisin üzvüdür: “Yazıçı, jurnalist və millət vəkili Aqil Abbas həmişə xalqın sözünü dediyi üçün daim rəğbət görüb. Onun Qarabağla bağlı yazdığı əsərlər 30 illik işğal dövründə milli ruhun saxlanılmasında və qələbə əzminin formalaşmasında böyük rol oynayıb”.

Daha sonra söz Aqil Abbasa verilib. O, tələbəlik həyatı, müəllimləri barədə xatirələrini bölüşüb. BDU-nun ölkəmizin həyatındakı rolunu vurğulayan qonaq tələbələri təhsil həyatlarından daha çox yararlanmağa, tələbəlik illərini səmərəli keçirməyə çağırıb. Yazıçılığı jurnalistlik və millət vəkilliyindən üstün bildiyini deyən Aqil Abbas ən böyük tənqidçisinin ailəsi olduğunu diqqətə çatdırıb. Tələbələri yaradıcılığı, xüsusilə Qarabağ ruhunu özündə əks etdirən əsərləri ilə tanış edən Aqil Abbas şanlı Zəfərimizə həsr olunan “44 gün” adlı ssenarisinin artıq başa çatdırdığını və yaxın günlərdə təqdim edəcəyini də bildirib.

Sonra qonaq tələbələrin suallarını cavablandırıb.

Görüşün sonunda Aqil Abbas tələbələrə öz kitablarını bağışlayıb.

# Tanınmış jurnalist, yazıçı-publisist Bahəddin Həzi ilə görüş

*Aprelin 24-də Jurnalistika fakültəsində tanınmış jurnalist, yazıçı-publisist, “Bizim yol” qəzetinin baş redaktoru Bahəddin Həzi ilə tələbələrin görüşü keçirilib.*



Əvvəlcə fakültənin dekanı Vüqar Əliyev qonağın həyat və yaradıcılığı ilə bağlı tələbələri məlumatlandırıb, onun ölkəmizdə klassik, analitik jurnalistikanın əsas nümayəndələrindən olduğunu qeyd edib.

Sonra söz qonağa verilib. Bahəddin Həzi jurnalist peşəsinin məsuliyyətli peşə olmasını vurğulayaraq, tələbə-jurnalistləri bu sahədə operativ, dəqiq, vicdanlı olmağa səsləyib. O, eyni zamanda peşəkar jurnalistin üzərinə düşən öhdəlikləri, jurnalistikanın əsas prinsiplərini tələbələrin diqqətinə çatdırıb: “Əsl jurnalist təkcə şahidi olduğu hadisəni xəbərə çevirən deyil, həm də müəllifi olduğu xəbəri hadisəyə çevirə biləndir. Öz xəbərinin təkcə müəllifi deyil, həm də qəhrəmanı olandır. Çox mütaliə, müşahidə edin. İşinizin çalışqan və vicdanlı ustası olun. Onda məşhurluq da, xoşbəxtlik də sizə gələcək".

Sonda qonaq müəllifi olduğu “Ölümcül həqiqətlər” kitabını tələbələrə hədiyyə edib.

Qeyd edək ki, kitabda müəllifin son illərdə qələmə aldığı publisistik məqalələr, esselər, tanınmış şəxsiyyətlərin portretləri, yol qeydləri, bədii hekayələri, eləcə də "Yadımdakı Qarabağ" poeması yer alıb.

# Hüquq fakültəsi Avropa Hüquq Fakültələri Assosiasiyasına tamhüquqlu üzv seçilib

*Hüquq fakültəsi Avropa Hüquq Fakültələri Assosiasiyasının (European Law Faculties Association - ELFA) İdarə Heyəti tərəfindən qurumun tamhüquqlu üzv seçilib.*

Hüquq fakültəsi Azərbaycanda ELFA-nın tamhüquqlu üzvü olan ilk fakültədir. Üzvlük çərçivəsində BDU-nun Hüquq fakültəsi Assosiasiyanın konfranslarında, görüşlərində, illik forumlarında təmsil olunacaq. Qeyd edək ki, ELFA 1995-ci ildə Belçikanın Leuven şəhərində Avropanın müxtəlif universitetlərində yerləşən 80-dən çox Hüquq məktəbləri və fakültələri tərəfindən təsis edilib. ELFA hüquq təhsili ilə bağlı mövzuların müzakirəsi üçün beynəlxalq forum kimi fəaliyyət göstərir, Avropada və beynəlxalq səviyyədə dövlət təsisatları və təhsil qurumları ilə danışıqlar aparır, əməkdaşlıq müqavilələri imzalayır. Hazırda təşkilatın əsas fəaliyyət istiqamətlərindən biri Avropa məkanında hüquq təhsili sahəsində islahatların aparılmasıdır.

BDU-nun Hüquq fakültəsinin ELFA kimi nüfuzlu təşkilata üzv qəbul edilməsi onun Avropa məkanında qabaqcıl fakültə kimi tanınmasının göstəricisidir.

# Türkiyənin Ege Universitetinin professoru BDU-da coğrafi turizmlə bağlı mühazirə oxuyub

*Aprelin 25-də Coğrafiya fakültəsində "XXI əsrdə turizmdə yeniliklər və turizm coğrafiyasında yeni yanaşmalar" mövzusunda elmi seminar keçirilib.*

Seminarda Türkiyənin Ege Universitetinin Coğrafiya bölümünün professoru Hüsun Baykal mövzu ilə bağlı çıxış edib. O, turizm trendləri, mədəni və etno-mədəni irs, təbii və bioloji müxtəliflik, mədəni irsin turizmdə istifadəsi, yaşıl, sosial turizm, kənd, dağ, icma, ekoloji turizmi haqqında dünya alimlərinin və özünün tədqiqat işləri haqqında məlumat verib. Müasir dövrdə dünya ölkələrində ictimai-siyasi vəziyyətin dəyişməsi, qlobal istiləşmə nəticəsində baş verən fəsadlar, epidemioloji şərait və bir sıra başqa səbəblərdən turizmdə yeni istiqamətlərin, növlərin meydana çıxdığını seminar iştirakçılarının nəzərinə çatdırıb. Hüsun Baykal Turizm coğrafiyası fənninin tədrisinin əsas problemləri, coğrafiya və turizm arasındakı əlaqələr, onun mədəni, təbii, ərazi amilləri, bu sahədə baş verən yeniliklər və ən yaxşı təcrübələr haqqında məlumatları da seminar iştirakçıları ilə paylaşıb. Elmi seminarın sonunda türkiyəli alim auditoriya iştirakçılarının suallarını cavablandırıb.

# “Aprel döyüşləri – Zəfərə aparan yol” adlı kitab sərgisi




***Aprelin 3-də BDU-nun Elmi Kitabxanasında “Aprel döyüşləri – Zəfərə aparan yol” adlı kitab sərgisi təşkil olunub.*** Sərgidə Aprel döyüşlərinin başlanma səbəbləri, nəticələri, tarixi əhəmiyyəti, tarixi Zəfərimizin əldə olunmasında Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli sərkərdəliyi, uzaqgörən hərbi və siyasi strategiyası, Azərbaycan əsgərinin rəşadəti, torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin döyüş yolunu əks etdirən, bugünkü gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində mühüm əhəmiyyəti olan 30-a yaxın kitab nümayiş olunur. Nümayiş olunan nəşrlər sırasında BDU-nun 2021-ci ildə işıq üzü görən “Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vətən müharibəsi dövründə xarici kütləvi informasiya vasitələrinə müsahibələri”, “Bakı Dövlət Universiteti Vətən müharibəsi dövründə”, “Tarix yazan məzunlar” və s. kimi kitablar da yer alır.

Qürur mənbəyimiz olan Aprel döyüşləri haqqında oxuculara dolğun məlumat verən sərgi həftənin sonuna qədər ziyarətçilərin üzünə açıq olacaq.

# BDU-da Aprel döyüşlərinin ildönümü qeyd olunub

***Aprelin 2-də BDU-nun “Zəfər tarixi” lektoriyasında Jurnalistika fakültəsinin təşkilatçılığı ilə Aprel döyüşlərinin ildönümü qeyd olunub.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev çıxış edərək, Aprel döyüşlərində Azərbaycan Ordusunun göstərdiyi şücaət, qazandığı qələbənin xalqımızda böyük ruh yüksəkliyi yaratdığın, ordumuzun böyük gücə malik olduğunu sübuta yetirdiyini, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirdiyini deyib.

Fakültənin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Samir Mirzəyev fakültədə qazilərlə görüşlərin ənənə halını aldığını, belə tədbirlərin tələbələrdə milli vətənpərvərlik ruhunun yüksəlməsinə müsbət təsir göstərdiyini vurğulayıb.

Daha sonra 2016-cı il Aprel döyüşlərinin qazisi Hikmət Məmmədov və Vətən müharibəsi iştirakçısı, jurnalist, ssenarist İlham Tumas keçdikləri döyüş yolundan və həmin günlərin, eyni zamanda 30 ilin qisasının artıq alındığını, Azərbaycanın qalib statusu ilə dünyaya tanındığını qeyd ediblər.

Tədbir tələbələrin çoxsaylı suallarının cavablandırılması başa çatıb.

# BDU-da təlim: “Yaşıl enerjiyə keçid dövründə gənclərin rolu”

***Aprelin 23-də Ekologiya və torpaqşünaslıq, Jurnalistika fakültələrinin, “EkoSfera” Ekoloji-Sosial Mərkəz İctimai Birliyinin birgə təşkilatçılığı ilə tələbələr üçün “Yaşıl dünya naminə həmrəylik ili”nə həsr olunmuş “Yaşıl enerjiyə keçid dövründə gənclərin rolu” mövzusunda interaktiv təlim keçirilib.***

Təlimin məqsədi dünyada iqlim dəyişikliyinin dağıdıcı risklərinin və enerji təhlükəsizliyinə təhdidlərin qarşısının alınması, ölkəmizdə “yaşıl enerji” mənbələri, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP 29) ilə bağlı maarifləndirmə aparmaqdır.

Tədbirdə BDU-nun Bioekologiya kafedrasının dosenti, “EkoSfera” Ekoloji-Sosial Mərkəz İctimai Birliyinin rəhbəri, COP29-un keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin üzvü Firuzə Sultan-zadə, BDU-nun Ekologiya və torpaqşünaslıq fakültəsinin dekanı, biologiya üzrə fəlsəfə doktoru, dosent Akif Ağbabalı, Jurnalistika fakültəsinin dekanı, MEDİA-nın Müşahidə Şurasının üzvü, filologiya elmləri doktoru, dosent Vüqar Əliyev çıxışlarında qeyd ediblər ki, ölkəmiz regionda yaşıl enerjiyə keçidə hədəflənən qabaqcıl yanaşmaların tətbiqi üzrə liderdir və iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə böyük töhfə verir. COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin alternativ enerji sahəsi üzrə texnoloji həllər məsələsində nailiyyətlərini bütün dünyaya nümayiş etdirməyə imkan verəcək. Ötən il dekabrın 25-də Prezident İlham Əliyev iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə “Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan olunması barədə Sərəncam imzalayıb. Sənəddə rəqabətqabiliyyətli iqtisadiyyatın dayanıqlı inkişafı, ölkənin təmiz ətraf mühit və yaşıl artım ölkəsinə çevrilməsi əsas prioritetlər kimi nəzərdə tutulur.

“EkoSfera” Ekoloji-Sosial Mərkəz İctimai Birliyinin proqram koordinatorları Pərvin Əzizli “COP29: Dayanıqlı gələcəyə doğru iqlim fəaliyyəti və öhdəliklər”, Leyla Qasımova “Yaşıl enerjiyə keçid”, Fərid Seyfullayev “İqlim dəyişmələri sahəsində liderlik bacarıqları” mövzularında təqdimatlar ediblər.

Təlimin sonunda COP29 ilə bağlı media məzmununun yaradılmasında Jurnalistika fakültəsinin tələbələrinin rolu ilə bağlı fikir mübadiləsi aparılıb.

# BDU-nun tələbə və əməkdaşları II Fəxri xiyabanı ziyarət ediblər



***Aprelin 4-də Kimya fakültəsinin tələbə və əməkdaşları Aprel döyüşlərinin ildönümü ilə əlaqədar II Fəxri xiyabanı ziyarət ediblər.*** Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün təmin olunması uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi ehtiramla yad edilib. Fakültə kollektivi şəhidlərimizin ruhlarına dualar oxuyub, məzarları üzərinə gül dəstələri düzüb.

# Bakıdan olan bir qrup abituriyent BDU-da



***Aprelin 25-də Bakı şəhəri 80 nömrəli tam orta məktəbdən olan abituriyentlər BDU-ya tanışlıq səfəri ediblər.***

Abituriyentlər seçdikləri ixtisas qruplarına uyğun olaraq BDU-nun Mexanika-riyaziyyat, Tətbiqi riyaziyyat və kibernetika, Fizika fakültələri, laboratoriya, təcrübə və dərs otaqlarına baş çəkiblər. Abituriyentlərə BDU-dakı ixtisaslar barədə ətraflı məlumat verilib. Bildirilib ki, müasir dövrün tələbləri və karyera imkanları nəzərə alınaraq tələbələr üçün hər cür şərait yaradılıb. Universitetin müasir tədris metodları, informasiya texnologiyaları sahəsində tətbiq etdiyi yeniliklər, BDU-nun “TEKNOFEST” və “Robotex” komandalarının beynəlxalq uğurları da diqqətə çatdırılıb.

Abituriyentlər BDU-nun Heydər Əliyev, "Genetika və təkamül" muzeyləri, Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi ilə tanış olublar. Nəzərə çatdırılıb ki, Mərkəzdə tələbələrin elmi yaradıcılıq potensialının üzə çıxarılması, elmi tədqiqatla məşğul olmaları üçün müxtəlif dərnəklər fəaliyyət göstərir.

Sonda tələbələr BDU-nun yeni təmir olunmuş 2 saylı tədris binasında yaradılan şəraitlə də tanış olublar.

# BDU-nun Həmkarlar İttifaqı Komitəsinin hesabat-seçki konfransı keçirilib

***Aprelin 25-də BDU Həmkarlar İttifaqı Komitəsinin (HİK) hesabat-seçki konfransı keçirilib. Konfransda Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin (ATİAHİ RK) sədr müavini Mirzə Cəfərzadə, Universitetin rəhbərliyi, konfransa təyin olunmuş nümayəndələr iştirak ediblər.***

BDU HİK-in sədri Rəşad Cabarov qurumun fəaliyyəti haqqında hesabat verib. BDU HİK-in Təftiş Komissiyasının hesabatı dinlənildikdən sonra hesabat ətrafında Geologiya fakültəsinin kafedra müdiri, akademik Vasif Babazadə, Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov, Fizika fakültəsinin dosenti Əlinağı Məmmədov, İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı, dosent Ələmdar Bayramov, ATİAHİ RK-nin sədr müavini Mirzə Cəfərzadənin çıxışları dinlənilib. Açıq səsvermə formatında HİK-in yeni tərkibi müəyyən olunub.

Daha sonra konfransın gündəliyinə uyğun olaraq HİK-in yeni sədrinin seçilməsi məsələsinə baxılıb. Təkliflərə əsasən, HİK-in indiki sədri Rəşad Cabarovun yenidən sədr seçilməsi ilə bağlı namizədliyi irəli sürülüb. Təklif konfransın sədri, ATİAHİ RK-nin sədr müavini Mirzə Cəfərzadə tərəfindən səsə qoyulub. Konfrans iştirakçılarının yekdil qərarı ilə Rəşad Cabarov növbəti müddətə BDU HİK-in sədri seçilib. Konfransda BDU HİK-in Təftiş Komissiyasının yeni tərkibi də təsdiq olunub. Konfransın sonunda Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin XVIII hesabat-seçki konfransına 2 nümayəndə - professor Məcnun Babayev və HİK-in sədri Rəşad Cabarov seçilib.

# BDU-da Ümumdünya Bioloqlar Gününə həsr olunmuş elmi seminar



***Aprelin 16-da Biologiya fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə 16 aprel - Ümumdünya Bioloqlar Gününə həsr olunmuş "Mikroorqanizmlərin bioindikator kimi su hövzələrinin ekoloji qiymətləndirilməsində rolu" adlı elmi seminar keçirilib.***

Tədbiri giriş sözü ilə açan Biologiya fakültəsinin dekanı Afət Məmmədova Ümumdünya Bioloqlar Günü münasibətilə əməkdaş və tələbələri təbrik edib, ətraf mühitin qorunmasında bioloqların rolundan danışıb.

Sonra II kurs tələbələri Lalə Miriyeva və Tərlan Oruczadə "Mikroorqanizmlərin bioindikator kimi su hövzələrinin ekoloji qiymətləndirilməsində rolu" mövzusunda təqdimat ediblər. Tədqiqatın rəhbəri Biotibbi materiallar kafedrasının dosenti Samirə Şəfiyevadır.

Lalə Miriyeva təqdimatda su hövzələrinin ekoloji qiymətləndirilməsi zamanı aparılan kimyəvi, fizioloji və bioloji metodlardan bəhs edib, bioloji metodun biondikasiya və biotest üsullarının digər üsullardan daha üstün olduğunu bildirib. Tərlan Oruczadə isə Xəzər suyunda müəyyən edilmiş canlı orqanizmlərin bioindikasiyada rolunu vurğulayıb.

Sonda fikir mübadiləsi aparılıb və iştirakçıların sualları cavablandırılıb.

# Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününə həsr olunmuş elmi seminar

***Aprelin 23-də İnformasiya və sənəd menecmenti fakültəsində 23 aprel – Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününə həsr olunmuş elmi seminar keçirilib.*** Elmi seminarda BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının müdiri, dosent Knyaz Aslan "Azərbaycanda müəlliflik hüququ: tarix, ənənə, təcrübə" mövzusunda məruzə edib. Tədqiqatçı əvvəlcə Azərbaycan və dünya ədəbiyyatı klassiklərinin irsində kitab, müəllif, müəllif hüququ anlayışlarını özündə əks etdirən nümunələri səsləndirib. Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününün meydana gəlməsi haqqında məlumat verib.

Azərbaycanda müəlliflik hüququ ənənələrinin uzaq dövrlərə gedib çıxdığını bildirən məruzəçi "Kitabi-Dədə Qorqud" dastanının buna ən yaxşı nümunə olduğunu qeyd edib. Dastanda Dədə Qorqudun hər boydakı əhvalatların sonunda söz söyləməsini tarixi abidəyə öz möhürünü vurması kimi səciyyələndirib. Bu ənənənin sonralar istər aşıq yaradıcılığında, istərsə də klassik yazılı ədəbiyyatda şeirlərin son bənd və son beytlərindəki möhürbəndlə davam etdirildiyini xatırladan Knyaz Aslan bütün bunların müəlliflik hüququ anlamına uyğun gəldiyini söyləyib.

Məruzədə Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü münasibətilə hər il keçirilən tədbirlərdə müəlliflərin, kitab ticarətçilərinin, nəşriyyat şirkətlərinin, rəssamların, tərcüməçilərin iştirak etdiyi, bu tədbirlər vasitəsilə keçmişlə gələcək arasında varislik əlaqəsinin yaradıldığı, nəsillərin və mədəniyyətlərin inteqrasiyasının bütövlükdə bəşəriyyətə xidmət etdiyi vurğulanıb.

Məruzədə bu əlamətdar günün ölkəmizdə 1997-ci ildən başlayaraq qeyd olunduğu xatırladılıb. Bildirilib ki, ölkəmiz Ümumdünya Əqli Mülkiyyət Təşkilatına, eyni zamanda müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində beynəlxalq konvensiya və müqavilələrə qoşulub. Ölkəmizdə bu sahədə hüquqi baza formalaşdırılıb, Ulu Öndər Heydər Əliyev tərəfindən "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Kitabxana işi haqqında", "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının qanunları imzalanıb.

Tədqiqatda Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin fəaliyyəti geniş şərh edilib, bu sahədə dövlət siyasəti barədə məlumatlar diqqətə çatdırılıb.

Elmi seminar müzakirələrlə davam etdirilib, məruzəçiyə çoxsaylı suallar ünvanlanıb.

# BDU və RİİB-in birgə təşkilatçılığı ilə ekoloji seminar və təmizlik aksiyası keçirilib

***Aprelin 23-də BDU və "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) birgə təşkilatçılığı ilə 22 aprel - Beynəlxalq Yer Gününə həsr olunmuş maarifləndirici seminar və təmizlik aksiyası keçirilib.***

Tədbir çərçivəsində BDU-nun müəllimləri tərəfindən Bakı şəhər 119 və 256 nömrəli tam orta məktəblərdə şagirdlərə iqlim dəyişikliyi, onun ekosistemə, ətraf mühitə və insan sağlamlığına təsiri, ekologiyanın qorunmasında şagirdlərin üzərinə düşən vəzifələr barədə ətraflı məlumat verilib. BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, Həmkarlar İttifaqı Komitəsinin sədri Rəşad Cabarov çıxışlarında günün önəmini qeyd edib, ölkəmizdə ekologiyanın qorunması istiqamətində həyata keçirilən dövlət siyasəti barədə danışıblar. BDU-nun müəllimləri Qismət Xanbabayev "Yaşıl enerji ehtiyatlarının coğrafi paylanması və əhəmiyyəti", Məhluqə Yusifova "İqlim dəyişikliyi problemi və onun Azərbaycana təsiri", Qiyas Bayramov "Su ehtiyatlarının çirklənməsinin səbəbləri", Günel Sarıyeva "Qlobal ekoloji problemlər və onların yaratdığı fəsadlar" mövzularında məruzələr edib, şagirdlərin suallarını cavablandırıblar.

Sonra tədbir hər iki qurumun könüllülərinin iştirakı ilə Türkan qəsəbəsində dənizkənarı ərazidə təmizlik aksiyası ilə davam etdirilib. Tədbir könüllülərin üzərində "Earth day" ("Yer Günü") yazılmış plakat açaraq keçirdikləri fleşmobla başa çatıb.

Qeyd edək ki, aksiyanın məqsədi ictimaiyyətin diqqətini günün əhəmiyyətinə yönəltmək, insanları, xüsusilə yeniyetmələri ekoloji maarifləndirmək, onları ətraf mühitin mühafizəsinə və təbiətə qayğı ilə yanaşmağa təşviq etməkdir.

# BDU-da təlim: "Qeyri-verbal kommunikasiyanın təhlili və təşkili"

***Aprelin 16-da Filologiya fakültəsi üzrə Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə "Qeyri-verbal kommunkasiyanın təhlili və təşkili" mövzusunda təlim keçirilib.***

Təlimçi BDU-nun məzunu, idarəetmə psixoloqu, Psixoloji Diaqnostika İnstitutunun direktor müavini David Poladov olub. Təlimçi ünsiyyət prosesinin verbal (söz, dil və nitqdən istifadə etməklə) və qeyri-verbal (əl-qol hərəkətləri, səs tonu, nitqin sürəti, tezliyi, bədən dili, sifət cizgiləri, geyim tərzi, ünsiyyət zamanı saxladığı məsafə və s.) vasitələrlə qurulduğunu bildirib. O qeyd edib ki, insanlar verbal ünsiyyəti öyrəndikləri kimi, qeyri-verbal ünsiyyət vasitələrinə də sosial mühitdə yiyələnirlər. Belə ki, kommunikasiya prosesində söz 17, səs 28, sözün necə deyilməsi isə 55 faiz əhəmiyyət kəsb edir. David Poladov gündəlik həyatda, siyasi görüşlərdə bədən dilini bilməyin vacibliyini vurğulayıb, dominantlıq, manipulyasiya kimi mövzulardan da söhbət açıb.

Təlimin sonunda təlimçi tələbələrlə müxtəlif kommunikasiya texnikaları üzərində işləyib və onların suallarını cavablandırıb.

# BDU-da IFLA-nın fəaliyyətinə həsr olunmuş elmi seminar keçirilib

***Aprelin 22-də İnformasiya və sənəd menecmenti fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə Kitabxana Assosiasiyaları və İnstitutları Beynəlxalq Federasiyasının (IFLA) fəaliyyətinə həsr olunmuş elmi seminar keçirilib.*** Elmi seminarda BDU-nun Sənəd menecmenti kafedrasının magistrantı Fərəh Məmmədli "IFLA-nın biblioqrafik fəaliyyəti" mövzusunda məruzə edib. Gənc tədqiqatçı əvvəlcə IFLA-nın yaranması, strukturu, fəaliyyət istiqamətləri, eyni zamanda təşkilatın qəbul etdiyi sənədlər barədə məlumat verib: "IFLA 1926-cı ildə Böyük Britaniyanın Edinburq şəhərində təsis olunub. Təşkilat qlobal miqyasda kitabxana işi və biblioqrafik fəaliyyət sahəsində əməkdaşlığı təşkil edir, qabaqcıl təcrübənin öyrənilərək yayılmasına dəstək verir, kitabxana-informasiya fəaliyyətinin inkişaf perspektivlərini müəyyənləşdirir".

Araşdırmada kitabxana-informasiya fəaliyyətinin müasir hədəfləri və paradiqmaları təhlil olunub. IFLA-nın bu mühüm prosesə təsiri, kitabxana fəaliyyətinin qlobal informasiya məkanına inteqrasiyası baxımından rolu araşdırılıb. Beynəlxalq biblioqrafik əməkdaşlığın əhəmiyyəti, onun formaları barədə məlumat verən tədqiqatçı IFLA-nın biblioqrafik fəaliyyətini geniş şərh edib. Bildirib ki, IFLA-nın fəaliyyətinin əsasını kitabxanalarda biblioqrafik resursların yaradılması, milli nəşr məhsulunun biblioqrafik uçotu, ən müxtəlif tələbatçı qruplarına biblioqrafik xidmətin göstərilməsi, kitabxanalarda biblioqrafik fəaliyyətin təkmilləşdirilməsi, bu sahədə yeni informasiya texnologiyalarının tətbiqi kimi mühüm istiqamətlər təşkil edir.

Məruzədə Azərbaycan kitabxanalarının beynəlxalq əlaqələrinin inkişafında təşkilatın rolu diqqətə çatdırılıb. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının və Milli Kitabxananın IFLA ilə səmərəli əməkdaşlığı xüsusi vurğulanıb.

# BDU-nun şahmat komandasının böyük uğuru

***Aprelin 23-də BDU-nun tələbələrdən ibarət şahmat komandası Yasamal Rayon İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş şahmat üzrə yarışlarda I yeri tutub.***

Komandanın üzvləri kubok, diplom və medallarla təltif olunublar.



# BDU-nun Quba Tədris-təcrübə və istirahət Mərkəzində ağacəkmə aksiyası

***Aprelin 1-də BDU-nun Quba Tədris-təcrübə və istirahət Mərkəzində "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində ağacəkmə aksiyası keçirilib.***

Aksiyada Universitet rəhbərliyi və tələbələr iştirak ediblər.

Ölkəmizdə iqlim dəyişikliyi ilə mübarizə və ətraf mühitin qorunması istiqamətində görülən tədbirlərə dəstək olaraq baş tutan ağacəkmə kampaniyasında Mərkəzin ərazisində 100-dək ağac əkilib.



Aksiyanın məqsədi ətraf mühitin qorunmasına, ekoloji tarazlığın bərpasına kömək etmək, ekoloji tərbiyəni gücləndirmək və təbiətə töhfə verməkdir.

# "I Gənc mədəniyyət müxbirləri məktəbi" layihəsinə start verilib



***Aprelin 19-da Azərbaycan Mətbuat Şurası, Jurnalistika fakültəsi və "525-ci qəzet"in birgə təşkilatçılığı ilə I Gənc mədəniyyət müxbirləri məktəbi layihəsinə start verilib.***

Layihənin məqsədi mədəniyyət sahəsi üzrə püxtələşmək arzusunda olan tələbələrin inkişafına təkan verməkdir. Layihə çərçivəsində bu sahədə imzası tanınan, praktiki cəhətdən daha hazırlıqlı şəxslərin təlimçi qismində tələbələrlə söhbəti, həmin tələbələrin mədəni-kütləvi tədbirlərə cəlb olunması, öyrəndiklərini tətbiq etmək üçün müxtəlif tip materialların hazırlanması və işıqlandırılması, sonda isə "I Gənc mədəniyyət müxbirləri məktəbi"nin xüsusi sertifikatının verilməsi nəzərdə tutulur.

Layihənin koordinatoru, "525-ci qəzet"in Mədəniyyət şöbəsinin müdiri, gənc nasir Nadir Yalçın "I Gənc mədəniyyət müxbirləri məktəbi"nin qarşıya qoyduğu məsələlər barədə tələbələrə məlumat verib.

Gənc mədəniyyət müxbirləri məktəbinin təlimçi qismində ilk qonağı "Ulduz" jurnalının baş redaktoru, Əməkdar jurnalist, tanınmış şair Qulu Ağsəs olub. Peşəkar jurnalist olmaq üçün böyük zəhmət və əzmlə yanaşı, digər zəruri keyfiyyətlərdən söhbət açan Qulu Ağsəs mətbuat sahəsindəki fəaliyyət dövründən danışıb. Əməkdar jurnalist "Yaxşı mədəniyyət müxbiri necə olmalıdır?" sualına dair tezislərlə çıxış edib.

Diskussiya formatında davam edən görüşdə tələbələrin müxtəlif suallarını cavablandıran təlimçi auditoriyanın enerjisini və fəallığını yüksək qiymətləndirib, hər kəsə uğurlar arzulayıb.

"Ulduz" jurnalının Nəsr şöbəsinin müdiri, şair Taleh Mansur da görüşdə iştirak edib. Jurnalın müxtəlif nümunələrini tələbələrə təqdim edən Taleh Mansur "Ulduz"un fəaliyyət istiqamətləri barədə auditoriyaya məlumat verib.

# IV Azərbaycan Astronomiya Olimpiadasının final mərhələsi keçirilib

***Aprelin 20-də IV Azərbaycan Astronomiya Olimpiadasının final mərhələsi keçirilib. BDU-da və Naxçıvan şəhərində STEAM Təlim-Tədris Mərkəzində keçirilən müsabiqədə olimpiadanın respublika turunu keçən 100-ə yaxın şagird iştirak edib.***



Olimpiadanın təşkilatçıları BDU, Azərbaycan Respublikasının Təhsil İnstitutu, N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanası, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi və "Həvəskar Astronomiya Cəmiyyəti" İctimai Birliyidir.

Olimpiadanın final mərhələsinin qalibləri bu il 17-26 avqust tarixlərində Braziliyada keçiriləcək XVII Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasına hazırlıq dərslərinə cəlb olunacaq və seçmə imtahanından uğurla keçən komanda ölkəmizi beynəlxalq olimpiadada təmsil edəcək.

Qaliblər Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasında Azərbaycan Respublikası Təhsil İnstitutunun dəstəyi ilə iştirak edir. IV Azərbaycan Astronomiya Olimpiadası və XVII Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasına hazırlıq dərsləri Cənubi Qafqazda yeganə planetarium olan Tusi-Bohm Planetariumun baş sponsorluğu ilə həyata keçirilir.

# BDU-da akademik hüquqi yazı və onun tədqiqinə dair təlim

***Aprelin 3-də Hüquq fakültəsində "BDU könüllüləri" və Tələbə Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə fakültənin müəllimi Əkbər Əliyev tərəfindən "Akademik hüquqi yazı və tədqiqat" mövzusunda təlim keçirilib.***

Təlimdə akademik hüquqi yazının nəzəri və praktiki aspektləri, mərhələləri, mövzu seçimi zamanı diqqət edilməli məsələlər, tədqiqatın aparılmasının önəmli məqamları, mənbələrə istinadların edilmə qaydası, xarici və yerli təcrübənin müqayisəsi kimi məsələlər müzakirə edilib.

Qeyd olunub ki, akademik hüquqi yazı bacarığı hər bir praktiki hüquqşünasın yiyələnməli olduğu ən vacib bacarıqlardandır. Belə ki, akademik hüquqi yazı bacarığına malik olan hüquqşünasların geniş karyera seçimləri əldə etmək, eləcə də yazı zamanı öz fikirlərini oxuculara daha aydın və anlaşıqlı şəkildə çatdırmaq imkanları artır. Akademik hüquqi yazının effektivliyini təmin etmək üçün o, sadə dildə yazılmalı, bu zaman söz seçimlərinə xüsusi diqqət yetirilməli, ədəbi dilin normaları yazıda ciddi şəkildə gözlənilməlidir.

Təlim zamanı tələbələrin akademik yazı və tədqiqatla bağlı sualları cavablandırılıb, mövzu ətrafında praktik işin təşkilinə dair diskussiya aparılıb.

# Audiovizual Şura BDU-da "Media subyektləri" adlı seminar keçirib

***Aprelin 18-də BDU, Audiovizual Şura və Medianın İnkişafı Agentliyi arasında imzalanmış anlaşma memorandumuna uyğun olaraq Şura əməkdaşları tərəfindən Jurnalistika fakültəsinin tələbələrinə növbəti seminar keçirilib.***

Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev əvvəl keçirilən görüşlərin tələbələr tərəfindən maraqla qarşılandığını və media sahəsində daha çox məlumat əldə etməyin zəruriliyini vurğulayıb. O, audiovizual media, media subyektləri və onlara verilən tələblər kimi məsələlərin də tələbələr üçün vacib mövzu olmasını diqqətə çatdırıb.

Audiovizual Şuranın Aparat rəhbəri Fazil Novruzov medianın tədrisində nəzəri biliklər ilə təcrübənin vəhdətinin zəruriliyini, bu istiqamətdə belə seminarların vacibliyini qeyd edib.

Sonra Audiovizual Şuranın əməkdaşları Ayxan Sadıqlı və Kamran Əliyev "Media subyektləri" mövzusunda geniş təqdimatla çıxış ediblər.

Görüş zamanı media subyektlərinə dair əsas tələblər, yayım hüququ, tematik yayım ilə bağlı müzakirələr aparılıb, tələbələri maraqlandıran suallar cavablandırılıb.

# BDU tələbələri üçün təlim: "Ailə milli-mənəvi dəyərlərin əsas daşıyıcısı kimi"

***Aprelin 24-də Sosial elmlər və psixologiya fakültəsində "Ailə milli-mənəvi dəyərlərin əsas daşıyıcısı kimi" adlı təlim keçirilib. Təlimdə fakültənin könüllüləri və Tələbə Gənclər Təşkilatının üzvləri iştirak ediblər.***

Fakültənin dekanı Rövşən Cavadov tərəfindən keçirilən təlimdə ailə institutunun yaranma və formalaşma tarixi, inkişaf xüsusiyyətləri, qloballaşan dünyada ailəyə göstərilən yad təsirlər barədə məlumat verilib. Rövşən Cavadov qeyd edib ki, tarixən ailə xalqımızın yüksək mənəvi dəyərlərinin qoruyucusu, genofondumuzun daşıyıcısı kimi milli inkişafımızda mühüm rol oynayıb. Ailələrin sağlam, xoşbəxt yaşaması üçün onun üzvləri arasında səmimi, mədəni münasibət olmalı, valideyn-övlad münasibətləri düzgün qurulmalıdır. Azərbaycan ailəsi özündə milli adət-ənənələrimizi yaşatmalıdır. Rövşən Cavadov bildirib ki, ailə cəmiyyətlə, mövcud olduğu dövrlə daim sıx əlaqədə olan bir institutdur. Qloballaşma, informasiya texnologiyalarının sürətli inkişafı, internetin həyatın hər sahəsinə nüfuz etməsi bir sıra müsbət tendensiyalarla yanaşı, bəzən neqativ rol da oynayır. Yad, millətimizə xas olmayan ideyaların, davranış tərzlərinin təbliği böyüməkdə olan nəslə bəzən yanlış yol göstərir, ailə münasibətlərində arzuolunmaz transformasiyalar baş verir. Bu baxımdan gənc nəslin təlim-tərbiyəsində ailə ilə bərabər, təhsil müəssisələrinin də üzərinə böyük məsuliyyət düşür. Cəmiyyət, hər bir vətəndaş bu yad meyllərin qarşısını qətiyyətlə almalı, milli dəyərlərin qorunması, itməməsi üçün güc sərf etməlidir.

Təlimdə Sosial elmlər və psixologiya fakültəsində ailə institutuna dair aparılan tədqiqatlar, ailədaxili münasibətlərin psixoloji aspektləri barədə də məlumat verilib.

Sonda tələbələrin sualları cavablandırılıb.

## BDU-nun müəllimləri prokurorluq və daxili işlər orqanlarının əməkdaşlarına təlim keçib



***Aprelin 1-də Baş Prokurorluğun Elm-Tədris Mərkəzində prokurorluq və daxili işlər orqanlarının əməkdaşları üçün "Məişət zorakılığına qarşı mübarizə: qanunvericilik və onun tətbiqi təcrübəsi" mövzusunda təlim keçirilib.***

Təlimdə Sosial elmlər və psixologiya fakültəsinin Psixologiya kafedrasının müəllimi Emiliya İgidova "Məişət zorakılığının qurbanı olmuş azyaşlılarla davranışın psixoloji aspektləri" mövzusunda çıxış edib. İlkin olaraq məişət zorakılığı və onun növləri haqqında məlumat verilib. Məruzəçi zorakılığı doğuran səbəblər, onun uşaq davranışında təzahür formaları, məişət zorakılığının qurbanı olmuş azyaşlı uşaqlarla davranış qaydaları, valideyn və pedaqoqlara verilən tövsiyələr barədə danışıb. Təlim iştirakçılarına məişət zorakılığına məruz qalmış uşaqların diaqnostikasında istifadə ediləcək ənənəvi və müasir tədqiqat metodları, zorakılıq əlamətlərini aşkara çıxara biləcək verbal və qeyri-verbal proyektiv testlər izah olunub.

Daha sonra Psixologiya kafedrasının baş müəllimi Kamilə Kazımova "Məişət zorakılığı qurbanlarının psixoloji reabilitasiya və psixoloji korreksiyasının xüsusiyyətləri" mövzusunda çıxış edib. Məruzəçi ailə-məişət zorakılığının təsnifatı haqqında informasiya verib, məişət zorakılığı qurbanı olan insanların psixoloji reabilitasiyası və psixoloji korreksiyası ilə bağlı işlərə diqqət çəkib. O, müxtəlif korreksiya metodlarından danışıb, fərdi, qrup korreksiyası ilə bağlı geniş məlumat verib.

Sonda iştirakçıların çoxsaylı sualları cavablandırılıb.

## BDU-da hibrid enerji sistemlərinə dair tədqiqatlar aparılır



***Aprelin 23-də BDU-nun və Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş "Hibrid enerji sistemləri və onların gələcək perspektivləri" mövzusunda elmi seminar keçirilib.*** BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov qeyd edib ki, Azərbaycan bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Son illər ölkədə bərpaolunan enerji mənbələrinin inkişafı, ənənəvi enerji sistemlərindən istifadənin tədricən azaldılması ilə bağlı bir sıra işlər həyata keçirilir. Bu baxımdan hibrid enerji sistemlərindən istifadə xüsusi əhəmiyyətə malikdir. Hibrid sistem birdən çox enerji qaynağının istifadə edildiyi sistemlərə deyilir. Bu sistemlər bir çox fərqli, alternativ enerji qaynağını özündə birləşdirə bilər. Hibrid sistemlərdə külək, günəş, su, geotermal və sair enerji qaynaqlarının birlikdə istifadəsi ilə ilin bütün fəsillərində enerji istehsal etmək mümkündür. Mais Süleymanov gənc tədqiqatçıları belə aktual mövzulara dair araşdırmalarda aktiv iştirak etməyə dəvət edib.

BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin (TİİMM) direktor müavini, Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının müdiri Mustafa Muradov gənclərin öz elmi, texniki layihələrini həyata keçirmələri üçün KOBİA və Gənclər Fondunun elan etdiyi qrant müsabiqələrindən yararlandıqlarını bildirib.

Sonra Nanoaraşdırmalar ETL-in kiçik elmi işçisi, KOBların təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi ilə bağlı 4-cü qrant müsabiqəsinin qalibi Orxan Güləhmədov yaşıl enerji mənbələri, qlobal enerji böhranı və onun həllində müasir trendlər, "Triboelektrik nanogeneratorlar əsasında hibrid formalı enerji sisteminin yaradılması və ağıllı bel çantasına inteqrasiya edilməsi" adlı layihə üzrə görülən işlər haqqında seminar iştirakçılarına ətraflı məlumat verib. Tədbirdə bu tip layihələrin keçirilməsi müsbət dəyərləndirilib.

## Dövlət Vergi Xidmətinin Yay Təcrübə Proqramının təqdimatı olub

***Aprelin 23-də İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (DVX) Bakı Dövlət Universitetində tələbələr üçün elan edilmiş sayca üçüncü Yay Təcrübə Proqramının təqdimatını təşkil edib.***

200-dən çox tələbənin iştirak etdiyi görüşdə DVX-nin İnsan resursları baş idarəsinin əməkdaşları proqramın faydaları, yaratdığı karyera imkanları barədə danışıblar. Tələbələr proqrama qoşulmaq üçün tələblər və seçim mərhələləri barədə məlumatlandırılıblar.

İyunun 28-dən avqustun 30-dək davam edəcək Yay Təcrübə Proqramının qeydiyyat mərhələsi aprelin 1-dən 30-dək həyata keçirilir. Proqramda iştirak etmək üçün sənəd qəbulu tecrube@taxes.gov.az elektron poçt ünvanı vasitəsilə aparılır.

Qeyd edək ki, Yay Təcrübə Proqramının əsas məqsədi tələbələrin bilik və bacarıqlarının artırılmasına, şəxsi inkişaflarına dəstək verməkdir. Tələbələr təcrübə proqramı vasitəsilə nəzəri biliklərini praktikada tətbiq etmək, vergi sahəsində yeni bilik və bacarıqlar formalaşdırmaq imkanı qazanmaqla yanaşı, proqramı uğurla tamamladıqları halda dövlət vergi orqanlarına daimi işə qəbul üçün dəyərləndirilirlər.

## BDU Türkiyədə keçirilən ənənəvi "Kitabxana həftəsi"ndə təmsil olunub

***Aprelin 1-də İnformasiya və sənəd menecmenti fakültəsinin əməkdaşları və tələbələri Türkiyənin Çankırı Karatekin, Bartın və Kastamonu Universitetlərinin İnformasiya və sənəd menecmenti bölümlərinin birgə təşkilatçılığı ilə keçirilən ənənəvi "Kitabxana həftəsi"nə həsr olunmuş paneldə iştirak ediblər.*** Tədbirin moderatoru, Çankırı Karatekin Universitetinin İnformasiya və sənəd menecmenti bölümünün rəhbəri professor Çoşkun Polat bildirib ki, 1964-cü ildən başlayaraq Türkiyədə "Kitabxana həftəsi"nin keçirilməsində məqsəd kitabxanaçılıq təhsilinə, kitabxana-informasiya fəaliyyətinə diqqəti artırmaq, bu istiqamətdə təcrübə mübadiləsini həyata keçirmək, fikirləri bölüşmək, sahənin inkişafı üçün daha yaxşı nəticələrə nail olmaqdır. Professor Çoşkun Polat qeyd edib ki, ənənəvi "Kitabxana həftəsi" günlərində kitabxanalara, sərgi salonlarına, muzeylərə ekskursiyalar təşkil edilir, nüfuzlu ictimai xadimlərlə görüşlər keçirilir, mühazirələr dinlənilir.

BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin elmi işlər üzrə dekan müavini, dosent Zahidə Rzayeva paneldə "Azərbaycanda kitabxana-informasiya infrastrukturu müasir mərhələdə" mövzusunda məruzə edib. Məruzədə ölkəmizdə bu sahədə həyata keçirilən dövlət siyasətindən, kitabxana-informasiya fəaliyyətinin təşkilinin mühüm istiqamətlərindən, işğaldan azad edilmiş ərazilərimizdə kitabxana quruculuğu sahəsində həyata keçiriləcək layihələrdən bəhs edilib. Mühazirədə həmçinin ölkəmizdəki təhsil mühiti, Azərbaycanın ilk universiteti olan BDU-nun tarixi və bu günü, eyni zamanda İnformasiya və sənəd menecmenti fakültəsi barədə geniş məlumat verilib.

Tədbirdə çıxış edən Çankırı Karatekin Universitetinin prorektoru, professor Hüseyin Odabaş, Kastamonu Universitetinin İnformasiya və sənəd menecmenti bölümünün rəhbəri, professor Hasan Keseroğlu, Bartın Universitetinin İnformasiya və sənəd menecmenti bölümünün rəhbəri, dosent Ahmet Altay son illər BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsi ilə Türkiyənin kitabxanaçılıq və informasiya fəaliyyəti, muzey, arxiv işi ixtisasları üzrə kadr hazırlayan universitetləri arasında əlaqələrin inkişaf etdiyini, birgə ustad dərslərinin, mühazirələrin, beynəlxalq elmi konfransların keçirildiyini vurğulayıblar, eyni zamanda gələcək əməkdaşlığın perspektivləri haqqında fikir mübadiləsi aparıblar.

## BDU-nun doktorantı türkdilli yazarların hekayələrini dilimizə uyğunlaşdıracaq



***Aprelin 24-də Filologiya fakültəsinin Türkologiya kafedrasının Türk dilləri ixtisası üzrə I kurs doktorantı Məleykə Mirzəli Türk dünyasının müxtəlif nöqtələrində yaşayan yazarların hekayələrini Azərbaycan türkcəsinə uyğunlaşdıracaq. Hekayələr kitab şəklində çap olunacaq.***

Məleykə Mirzəlinin "Türk dünyası hekayələrdə" adlı layihəsi Azərbaycan Respublikasının Gənclər Fondunun elan etdiyi "İdeyanı reallaşdır 2023" gənclərin fərdi layihələr üzrə qrant müsabiqəsi çərçivəsində reallaşacaq.

## BDU tələbələri "Tullantıdan sənətə" muzeyində

***Aprelin 26-da Tarix fakültəsinin tələbələri "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar "Tullantıdan sənətə" muzeyində olublar.*** "Tullantıdan sənətə" muzeyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisində yaradılıb. Muzeydə "Tullantıdan sənətə" beynəlxalq sərgisində nümayiş olunan əsərlər sərgilənir. Tələbələrə məlumat verilib ki, muzey və keçirilən sərgilər geniş ictimaiyyətin diqqətini təhlükəli, bəzən qarşısıalınmaz ekoloji problemlərə cəlb etmək məqsədi daşıyır. Burada yararsız hesab edilərək atılmış əşyalar, tullantı materialları sənətkarların əlləri ilə "ikinci həyat" tapıb.

Sonra isə tələbələr "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisindəki qala divarları və XIV-XV əsrlərdən qalma müxtəlif arxeoloji tapıntılarla tanış olublar.

# GÖZƏL MÜƏLLİM, İSTEDADLI ALİM VƏ ZƏHMƏTKEŞ İNSAN ÖMRÜ

***Hər bir xalqın milli şüurunun, milli özünüdərkinin yetkinləşməsi və formalaşması onun elminin və təhsilinin inkişafı ilə bilavasitə əlaqədardır. Bu baxımdan ötən əsrin 20-ci illərindən başlayaraq, xalqımızın maariflənməsində, ziyalı təbəqəsinin formalaşmasında, alimlərimizin yetişməsində, elm ənənələrinin zənginləşməsində Bakı Dövlət Universitetinin rolu əvəzsizdir.***

Bakı Dövlət Universitetində Azərbaycanda elmi məktəblərin təşəkkülündə, fundamental elm sahələrinin inkişafında əvəzsiz rolu olan dəyərli alimlər yetişib. Elmin belə yüksək zirvələrini fəth etmiş alimlərdən biri də, respublikada elmin inkişafına sanballı töhfələr bəxş etmiş, fizikanın ali və orta məktəblərdə tədrisinin təşkilində, yüksək ixtisaslı kadrların hazırlanmasında böyük xidmətlər göstərmiş, fizika-riyaziyyat elmləri doktoru, professor Sərhəddin Abdullayevdir.

İnsan övladının mənəvi keyfiyyətləri onun bir ömür boyu əməllərində, fəaliyyətində öz real əksini tapır. Bu əməllər, bu fəaliyyət həm də şəxsiyyət ucalığına çatmış belə insanların cəmiyyətdəki layiqli mövqeyini və statusunu müəyyənləşdirir. Odur ki, tanınmış insan olaraq ömrün müdriklik zirvəsinə yetişmək, bu dünyada iz qoymaq xoşbəxtliyi heç də hamıya nəsib olmur. 14 aprel 2024-cü ildə Bakı Dövlət Universitetinin Nəzəri fizika kafedrasının professoru, fizika-riyaziyyat elmləri doktoru, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, "Qabaqcıl təhsil işçisi", respublikanın ən ucqar regionlarının məktəblərindən tutmuş Bakı şəhərinin aparıcı məktəb və liseylərində çalışan fizika müəllimlərinin, abituriyentlərin stolüstü kitablarının, onlarla dəyərli dərslik, dərs və metodik vəsaitlərin müəllifi gözəl müəllim, istedadlı alim və zəhmətkeş insan olan Sərhəddin Abdullayevin anadan olmasının 85, elmi-pedaqoji fəaliyyətinin isə 65 ili tamam olur.

Sərhəddin Qubaddin oğlu Abdullayev 1939-cu il aprel ayının 14-də Qusar rayonunun Piral kəndində dünyaya göz açıb. Böyük Vətən müharibəsində atasını itirdiyi üçün uşaqlıq illəri çox ağır keçib. Yaşayış şəraitinin çətinliyi üzündən orta məktəbə yalnız 1948-ci ildə, 9 yaşında gedib. Orta məktəbi 1958-ci ildə "əla" qiymətlərlə başa vurub və orta məktəb illərində onda fizika fənninə böyük maraq yaranıb. Bu elmə olan sevgisi onu Bakı Dövlət Universitetinə gətirib. 1958-ci ildə Bakı Dövlət Universitetinin Fizika fakültəsinə daxil olub. Universitetdə yalnız əla qiymətlərlə oxuduğu üçün o, adlı təqaüdə - "Lenin təqaüdü"nə layiq görülüb. 1963-cü ildə Fizika fakültəsini Fizik, Fizika müəllimi ixtisasları üzrə fərqlənmə diplomu ilə bitirib.



Universiteti bitirdikdən sonra təyinat üzrə Quba rayon təhsil şöbəsinə göndərilib və 1963-1964-cü illərdə 1 il müddətində Quba rayonunun Qımıl kənd orta məktəbində fizika müəllimi işləyib. 1964-cü ildə görkəmli alim, tanınmış ziyalı, Azərbaycanda Nəzəri fizika məktəbinin yaradıcısı professor Abdulla Muxtarov Bakı Dövlət Universitetində Nəzəri fizika ixtisası üzrə aspiranturaya yerin ayrılmasını nəzərə alaraq, Sərhəddin Abdullayevi imtahanlarda iştirak etməyə dəvət edib və ona elmi fəaliyyətlə məşğul olmağı məsləhət görüb. Dəvəti məmnuniyyətlə qəbul edən Sərhəddin Abdullayev imtahanlardan yüksək qiymətlər alaraq, 1964-cü ildə aspiranturaya qəbul olub. Özünün dediyinə görə bu hadisə, onun həyatında əhəmiyyətli bir dönüş nöqtəsi olub. Abdulla Muxtarovun elmi rəhbərliyi ilə tədqiqatlar aparan Sərhəddin Abdullayev 1970-ci ildə "Lepton-lepton toqquşması zamanı bir sıra elektromaqnit və zəif qarşılıqlı təsir proseslərində polyarizasiya effektlərinin tədqiqi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək "Nəzəri fizika" ixtisası üzrə fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsini alıb. O, 1974-cü ildə dosent elmi adını alıb.

Sərhəddin Abdullayev aspiranturanı bitirdikdən sonra 1967-ci ildə Bakı Dövlət Universitetinin Maddə quruluşu kafedrasında assistent vəzifəsində əmək fəaliyyətinə başlayıb və 1969-cu ilə kimi bu vəzifədə çalışıb. 1969-cu ildə Abdulla Muxtarovun tövsiyəsi və özünün arzusu ilə müsabiqədə iştirak edərək Bakı Dövlət Universitetinin Nəzəri fizika kafedrasına baş müəllim vəzifəsinə keçib. 1969-1974-cü illərdə Nəzəri fizika kafedrasında baş müəllim, 1974-1997-ci illərdə isə dosent vəzifəsində çalışıb, 1997-ci ildən isə Nəzəri fizika kafedrasında professor vəzifəsində çalışır. Sərhəddin Abdullayev bu illər ərzində pedaqoji fəaliyyətlə yanaşı, eyni zamanda elmi fəaliyyətlə də məşğul olub, həmçinin ölkəmizdə elmi və pedaqoji kadrların hazırlanmasına gərgin əmək sərf edib.

Sərhəddin Abdullayev 1970-ci ildən doktorluq dissertasiyası üzərində işləməyi qarşısına məqsəd qoyaraq intensiv elmi-tədqiqat işləri aparıb. Onun elmi tədqiqatlarından alınan nəticələr dünyanın LEP, SLC və TRISTAN kimi iri tədqiqat mərkəzlərində aparılmış təcrübələrdə öz təsdiqini tapıb, həmçinin Moskva Dövlət Universitetində, Belorus Elmlər Akademiyasının Fizika İnstitutunda və Birləşmiş Nüvə Tədqiqatları İnstitutunda (Dubna şəhəri) bu sahənin görkəmli alimləri A.A. Sokolov, D.Y. Bardin, I.A. Savin, V. Kadışevski və başqalarının iştirakı ilə keçirilən geniş müzakirələrdən keçib. O, bu müzakirələrdə mütəxəssislərin verdiyi suallar və söylədiyi fikirlər əsasında sonrakı elmi fəaliyyətinin çərçivəsini müəyyənləşdirib. Odur ki, qısa zamanda onun 10-a yaxın sanballı məqaləsi Rusiyanın nüfuzlu elmi jurnalı olan "Nüvə fizikası" jurnalında dərc edilib. 1995-ci ildə "Elementar zərrəciklər və atom nüvəsi fizikası" jurnalında dərc olunmuş "Elektron-pozitron annihilyasiyasında supersim-bozonu" adlı 60 səhifəlik icmal məqaləsində doktorluq dissertasiyasının bir sıra əsas nəticələri əks olunub. Sərhəddin Abdullayev 1996-cı ildə "Lepton-lepton və lepton-hadron qarşılıqlı təsirlərində zəif cərəyan effektləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək "Nəzəri fizika" ixtisası üzrə fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsini alıb. O, 1997-ci ildə professor elmi adını alıb.

Sərhəddin Abdullayevin elmi fəaliyyət istiqaməti əsasən elektromaqnit, zəif və güclü qarşılıqlı təsirlərin vahid nəzəriyyəsi olan Standart Modelin yoxlanılması və ondan kənarda mümkün hesab olunan "Yeni fizika"nın aktual problemlərinin nəzəri tədqiqi bağlıdır. Onun elmi rəhbərliyi ilə Nəzəri fizika ixtisası üzrə 6 nəfər fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün dissertasiya işini müdafiə edib. O, eyni zamanda çox sayda magistr dissertasiya işlərinin elmi rəhbəri olub. Respublika və xarici ölkələrin elmi mətbuatında dərc olunmuş 500-ə yaxın elmi əsərin, o cümlədən orta ümumtəhsil məktəbləri və ali məktəblər üçün yazılmış 3 monoqrafiyanın, 27 dərsliyin, 65 dərs vəsaitinin, 26 metodik vəsaitin və 12 tədris proqramının müəllifidir. Olimpiada həvəskarlarına kömək məqsədilə onun "Fizikadan olimpiada məsələləri" adlı 3 dərs vəsaiti çap edilib. Sərhəddin Abdullayev pedaqoji fəaliyyəti dövründə bakalavr pilləsində "Klassik elektrodinamika" və "Kvant mexanikası" fənlərini tədris etmiş, hazırda isə magistratura pilləsində "Kvant elektrodinamikası", "Elementar zərrəciklərin kinematikası", "Elektromaqnit qarşılıqlı təsir nəzəriyyəsi", "Elektrozəif qarşılıqlı təsir nəzəriyyəsi", "Fundamental qarşılıqlı təsirlərin ümumi xassələri", "Standart Model, leptonların və kvarkların xassələri" və "Hadron proseslərinin fizikası" fənlərini yüksək ustalıqla tədris etməklə pedaqoji fəaliyyətini uğurla davam etdirir.

Respublikamız müstəqillik əldə etdikdən sonra yeni tədris proqramlarının tərtibi və ana dilində yazılan dərsliklərə ehtiyacın olması Sərhəddin müəllimin diqqətindən yan keçməyib. O, istər orta məktəblər, istərsə də ali məktəblər üçün bu problemin həllinə öz əhəmiyyətli töhfəsini verib. Onun orta ümumtəhsil məktəbləri və liseylər üçün yazdığı müxtəlif səpkili dərslik, dərs vəsaiti və metodik vəsaitlər Azərbaycan Respublikasının müstəqillik əldə etdiyi gündən bəri ana dilində yazılmış dərsliklərə yaranmış tələbatı yetərincə ödəyir. Artıq sayı 100-ü ötmüş bu kitablarda müəllimlərin, ali məktəblərə hazırlaşan abituriyentlərin bütün istək və arzuları öz əksini tapır. Sərhəddin Abdullayev 40 ildən çox bir müddət ərzində Fizika fənni üzrə Respublika olimpiadasının münsiflər heyətinin, o cümlədən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin orta ümumtəhsil məktəbləri üçün Fizika dərsliklərinin və dərs vəsaitlərinin yazılması üzrə komissiyasının aparıcı üzvü olub. O, eyni zamanda uzun illərdir ki, Bakı Dövlət Universitetinə nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının, həmçinin Fizika fakültəsi Elmi Şurasının üzvüdür. O, hazırda həm də Dissertasiya Şurasının Nəzəri fizika ixtisası üzrə elmi seminarının sədridir.

Xalqımız hər zaman daxilən zəngin, nəcib, zəhmətkeş və xoş xasiyyət insanlara hörmətlə yanaşıb, onları xalqın milli dəyərləri hesab ediblər. Uzun illər fizika sahəsində çalışaraq ağlının və iradəsinin qüdrəti ilə elmin zirvəsinə yüksələn, nəzəri fizika məktəbinin parlaq nümayəndələrindən biri kimi elmdə və təhsildə öz sözünü deyən, özünə məxsus həlim xarakteri ilə seçilən, Bakı Dövlət Universitetinin professoru olaraq gəncliyin işıqlı sabahına çalışan Sərhəddin Abdullayev məhz bu cür insanlardandır. Tələbələrinə peşəkar müəllim tələbkarlığı və xüsusi qayğı ilə yanaşan Sərhəddin müəllim həm də gözəl ailə başçısıdır. Onun 3 qızı və 6 nəvəsi var.

Sərhəddin Abdullayevin elmi-pedaqoji və ictimai fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilib. Məhsuldar əməyinin nəticəsi olaraq o, 2014-cü ildə Azərbaycan Respublikasının "Qabaqcıl təhsil işçisi" döş nişanına, 2016-cı ildə "Qızıl qələm" mükafatına, 2017-ci ildə Avropa Nəşr Mətbuat evinin "Ən yaxşı vətənpərvər tədqiqatçı alim" qızıl medalına layiq görülüb. O, 2019-cu ildə Rusiyanın Təbiət Elmləri Akademiyasının həqiqi üzvü seçilib. 2019-cu ildə Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüb və "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif olunub.

Sərhəddin müəllim ömrünün ixtiyar çağında belə yenə də əvvəlki tək böyük enerji ilə mühazirələr oxuyur, doktorant və magistrlərə elmi rəhbərlik edir, nəzəri fizikanın müxtəlif problemlərini araşdırır, yeni-yeni dərslik üzərində çalışır, gənc fiziklərə öz dəyərli məsləhətlərini verir, məhsuldar elmi və pedaqoji fəaliyyətini əzmlə davam etdirir.

Görkəmli Azərbaycan alimi, nəzəri fizika və nüvə fizikası sahəsində məşhur mütəxəssis, Azərbaycanda fizika elminin və təhsilin inkişafında xüsusi xidmətləri olan Sərhəddin Qubaddin oğlu Abdullayevin 85 yaşı və məhsuldar elmi fəaliyyətinin 65 ili tamam olur. Bu münasibətlə, hörmətli Sərhəddin müəllimi ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür, ailə səadəti, çətin və şərəfli olan elmi-pedaqoji fəaliyyətində uğurlar arzulayırıq.

*Bəxtiyar Paşayev,*
*Fizika fakültəsinin dekanı*

*Məmməd Rəcəbov*
*Nəzəri fizika kafedrasının müdiri*

# BDU tələbəsi Praqada Qış Hüquq Məktəbində iştirak edib





***BDU-nun SABAH qruplarının Hüquqşünaslıq ixtisası üzrə IV kurs tələbəsi Xanım Quliyeva Çexiya Respublikasının paytaxtı Praqa şəhərində Avropa Hüquqşünas Tələbələr Assosiasiyası (ELSA) tərəfindən "Kibertəhlükəsizlik və süni intellekt hüququ" mövzusunda keçirilən Qış Hüquq Məktəbində iştirak edib.*** Burada dünyanın 17 müxtəlif ölkəsindən 39 hüquq tələbəsi müxtəlif akademik və sosial proqramlara cəlb edilib.

Layihə çərçivəsində "Avropa İttifaqında kibertəhlükəsizlik: müvafiq qanunvericilik və beynəlxalq əməkdaşlıq", "Qanun metaverse (virtual kainat) və virtual reallıqda necə işləyir?" mövzularında ölkənin ən yaxşı hüquqşünasları tərəfindən təlimlər keçirilib. Tələbələr üçün Çexiyanın Karlova Universiteti, Praqa qalası, Praqa Milli Muzeyi və digər yerlərə səfərlər təşkil edilib.

Layihənin sonunda iştirakçılara sertifikatlar və hədiyyələr təqdim olunub.

# SABAH qruplarının tələbələri "Maarifçi" təcrübə-təqaüd proqramının qalibi olublar





***BDU-nun SABAH qruplarının Hüquqşünaslıq ixtisası üzrə IV kurs tələbələri Nigar Rəhimli və Nihad Musayev Elm və Təhsil Nazirliyi tərəfindən təşkil olunan "Maarifçi" təcrübə-təqaüd proqramının qalibi olublar.***

Proqrama 2000 müraciətçi arasından 28 qalib tələbə seçilib. Müsabiqə sənədlərin yoxlanması, test və müsahibə olmaqla 3 mərhələdə keçirilib. Qaliblər Elm və Təhsil Nazirliyində və onun qurumlarında təcrübə keçmək, aylıq təqaüd almaq şansı qazanıblar.

# BDU tələbələri Siyəzəndə ağacəkmə aksiyasında iştirak ediblər

***Aprelin 18-də Biologiya fakültəsinin tələbələri və ekokönüllüləri 22 aprel – Beynəlxalq Yer Günü ilə əlaqədar Siyəzən rayonunda ağacəkmə aksiyasında iştirak ediblər.*** Aksiya Qlobal Ekologiya Fondunun dəstəyi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və Qafqaz üçün Regional Ekoloji Mərkəz tərəfindən birgə icra olunub.

"Torpaq deqradasiyası neytrallığına nail olmuş Azərbaycana doğru" layihəsi çərçivəsində keçirilən tədbir zamanı ətraf mühitin mühafizəsi, yaşıllıq zonalarının bərpası və genişləndirilməsinin iqlim dəyişikliyi ilə mübarizəyə verdiyi töhfələrdən danışılıb. Daha sonra ərazidə yerli torpaq-iqlim şəraitinə uyğun müxtəlif növ ağaclar əkilib.

Qeyd edək ki, Beynəlxalq Yer Günü ekoloji problemlərin həllinə, ətraf mühitin mühafizəsinə diqqəti artırmaq məqsədilə 190-dan çox ölkədə, o cümlədən Azərbaycanda qeyd olunur.

# BDU-nun "Gənc istedadlar" liseyinin şagirdləri "Sabahın alimləri" XIII Respublika müsabiqəsinin qalibləri sırasında

***Aprelin 19-da "Sabahın alimləri" XIII Respublika müsabiqəsinin bağlanış mərasimi keçirilib.***

Bakı Dövlət Universitetinin nəzdində "Gənc istedadlar" liseyinin şagirdləri müsabiqədə xüsusi fərqləniblər. Onlardan X sinif şagirdləri Nihad Həşimov və Onur Əlləzov fizika və astronomiya üzrə II, X sinif şagirdləri Bəxtiyar Əmiraslanov, İlyas Muxtarov, IX sinif şagirdi Cabir Abbasov kimya, X sinif şagirdi Fuad Hüseynov isə biologiya istiqaməti üzrə III yerə layiq görülüblər.

Şagirdlərimizi təbrik edir, daha böyük uğurlar arzulayırıq!

# "BDU könüllüləri" təşkilatının "Lin-Orph" musiqi klubunun konsert proqramı

***Aprelin 16-da "BDU könüllüləri" təşkilatının "Lin-Orph" musiqi klubunun təşkilatçılığı ilə "Retro" konsert proqramı təşkil olunub.***

Proqramda könüllülərin ifasında "İntizar", "We Will Rock You", "Bayatılar", "Ölsəm bağışla" kimi musiqi nömrələri səsləndirilib.

Konsertdə həmçinin Azərbaycan Könüllü Təşkilatları İttifaqının (AKTİ) üzvü olan 10-a yaxın könüllü təşkilatının ("KOB könüllüləri", "MEDİA könüllüləri", "Könüllü gömrükçü", "Miqrasiya könüllüsü", "Bir könüllü", "Fövqəladə hallar könüllüləri", "Könüllü DOST", "Aqrar İnkişaf Könüllüləri" və "Ekokönüllü") üzvləri də iştirak ediblər.

Qeyd edək ki, 2019-cu ildən fəaliyyət göstərən "BDU könüllüləri" təşkilatı hazırda öz ətrafında 1000-ə yaxın tələbəni birləşdirir.

# BDU-nun SABAH qruplarının tələbələri Fiziologiya İnstitutunda infosessiyada

***Aprelin 16-da BDU-nun SABAH qruplarının Biologiya müəllimliyi ixisasının tələbələri üçün Elm və Təhsil Nazirliyinin akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunda infosessiya təşkil olunub.***

İnstitutun "İnteqrativ fəaliyyətin molekulyar əsasları" laboratoriyasının müdiri, biologiya üzrə elmlər doktoru Arif Mehdiyev laboratoriyada siçovullar üzərində aparılan tədqiqatlarla tələbələri tanış edib. Laboratoriyada siçovullar üzərində morfinin öz-özünə yeridilmə modelinin tədqiqat imkanları, serotonin-modullu antikonsolidasiya zülalına qarşı poliklonal anticisimlər vasitəsilə onların morfini qəbul etməsinin 5-8 dəfə azalması nəticəsində baş verən xüsusiyyətlər izah olunub, bu istiqamətdə aparılan eksperimentlərdən söz açılıb.

Sonra tələbələr "Görmənin və neyrodegenerativ proseslərin fiziologiyası" laboratoriyasında biologiya elmləri doktoru Elmira Pənahovanın rəhbərliyi ilə bir neçə istiqamətdə aparlan elmi tədqiqat işləri haqqında məlumatlandırılıblar.

# Mərkəzi Bank BDU tələbələri üçün infosessiya keçirib

***Aprelin 17-də Azərbaycan Mərkəzi Bankı BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun təşkilatçılığı ilə tələbələr üçün "Maliyyəçi-sən" təcrübə proqramı haqqında infosessiya keçirib.***

BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun baş mütəxəssisi İlkin Şərifov tələbələrə sektorun fəaliyyəti haqqında məlumat verib. Bildirib ki, tələbələrin karyera quruculuğuna yardım etmək, onları əmək bazarına uğurlu adaptasiyaya yönləndirmək üçün müxtəlif qurumlarla səmərəli əməkdaşlıq edilir.

Mərkəzi Bankın İnsan resursları departamentinin Təhsil və inkişaf şöbəsinin mütəxəssisi Nigar İsayeva təcrübə proqramının məqsədinin Azərbaycanın yüksək potensiallı gənclərini bank sektoru ilə yaxından tanış etmək, onların bacarıqlarını inkişaf etdirmək olduğunu vurğulayıb. Mərkəzi bankçılıq sistemi üzrə əvəzsiz təcrübə qazandıracaq bu proqram gənclərə uğurlu karyera qurmağa təkan verəcək. İştirakçılar təcrübə müddətində seçilən istiqamətlər üzrə təyin olunan mentorların dəstəyi ilə ən mühüm bacarıqlara yiyələnəcək, müxtəlif bankdaxili təlimlərə qatılacaqlar. Təqaüd proqramında hədəf qrupunu tələbələr və son iki ilin məzunları təşkil edir.

Tələbələrə proqramın müddəti, mərhələləri, müraciət qaydaları, şəxsi qovluğun hazırlanması yolları ətraflı izah olunub.

Sonda iştirakçıların sualları cavablandırılıb.

# "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində təmizlik aksiyası

***Aprelin 18-də BDU-nun Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə "Gənclik həftəsi 2" layihəsi çərçivəsində "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş təmizlik aksiyası keçirilib.***

Aksiyaya TGT-nin fəal üzvləri, müxtəlif fakültələrin tələbələri qoşulub.

Tədbirin əsas məqsədi Universitet ərazisində təmizliyə riayət olunmasının təbliği, gəncləri ətraf mühitin mühafizəsi uğrunda mübarizəyə cəlb etməkdir.

Aksiya zamanı tələbələr BDU-nun ərazisində olan tullantıları toplayıblar.

## BDU tələbələri Türkiyənin İstanbul şəhərindəki kitabxanaların iş təcrübəsi ilə tanış olublar

*İnformasiya və sənəd menecmenti fakültəsinin bir qrup tələbəsi Türkiyə Cümhuriyyətinin İstanbul şəhərində yerləşən bəzi kitabxanaların iş təcrübəsi ilə tanış olublar.*



Atatürk Mədəniyyət Mərkəzinin Kitabxanası, Bəyazid Dövlət Kitabxanası, Orxan Kamal Xalq Kitabxanası, Rami Kitabxanası, professor Fuat Sezgin və doktor Ursula Sezgin adına Elmlər Tarixi Kitabxanası, Ahmet Hamdi Tanpınar adına Ədəbiyyat Muzeyi Kitabxanasında olan tələbələrə Türkiyədə kitabxana işinin tarixi, mövcud durumu və perspektivləri barədə mühazirələr oxunub. İstanbul şəhərində yerləşən kitabxanaların fəaliyyəti, strukturu, innovativ iş metodları, sənəd dövriyyəsi, kitab fondu, rəqəmsallaşdırma prosesləri, oxucu kateqoriyaları, kitabxanalardan istifadə qaydaları, üzvlük üçün tələb olunan prosedurlar və s. barədə ətraflı məlumatlar verilib.

Qardaş ölkələrimiz arasında günbəgün inkişaf edən əlaqələrin kitabxana-informasiya infrastrukturunu da geniş şəkildə əhatə etdiyi diqqətə çatdırılıb. Tələbələr səfərin təşkilinə şərait yaratdıqlarına görə BDU rəhbərliyinə, Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinə minnətdarlıqlarını bildirib, qardaş ölkədə təcrübə zamanı əldə etdikləri bilik və bacarıqların gələcək karyeralarında mühüm rol oynayacağını vurğulayıblar.

## Tələbələr Bakı Zooloji Parkında elmi seminar keçiriblər

*Aprelin 4-də Ekologiya və torpaqşünaslıq fakültəsinin Tələbə Elmi Cəmiyyəti (TEC) "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Quşların ekosistemdə rolu" elmi seminarını fərqli formatda Bakı Zooloji Parkında keçirib.*



Seminarda II kurs tələbəsi Səma Vəliyeva quşların ekosistemdə rolundan və mühafizəsinin vacibliyindən danışıb. Bildirib ki, hazırda Yer kürəsində 9800-dən artıq quş növü yaşayır, onlar öz quruluşu, həyat tərzi, qidası və artımına görə dəstələrə bölünür. Azərbaycanda isə mövcud olan 400 quş növü 18 dəstə və 61 fəsiləyə mənsubdurlar. Bunların 40%-i oturaq növ olmaqla, Azərbaycanda il ərzində müşahidə edilir, 27%-i qışlayan, 10 %-dən çoxu köç vaxtı qeydə alınan növlərdir. 36 növ quş Azərbaycan Respublikasının "Qırmızı kitabı"na daxil edilib. Quşlar təbiətin bəzəyi olmaqla yanaşı, ekosistemin qoruyucuları rolunda çıxış edirlər.

Fakültənin II kurs magistrantı Ramil Həsənov isə Abşeron göllərində (Bülbülə və Kürdəxanı) apardığı tədqiqat işi üzrə geniş təqdimatla çıxış edib.O bildirib ki, tədqiqat nəticəsində ərazidə ümumilikdə 73 növ quş qeydə alınıb ki, onlardan 9-u Azərbaycan Respublikasının "Qırmızı kitabı"nın III nəşrinə daxil edilib. 4 növ isə Təbiətin Mühafizəsi üzrə Beynəlxalq Birliyin (IUCN) "Qırmızı siyahı"sına daxildir.

Daha sonra seminar iştirakçıları Bakı Zooloji Parkının ərazisində mühafizə olunan quş növlərini canlı müşahidə ediblər.

## BDU tələbələrinin iştirakı ilə meşəsalma tədbiri və təlim keçirilib

*Aprelin 9-da Biologiya fakültəsinin tələbələri və Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidmətinin əməkdaşlarının iştirakı ilə "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş "Karbonu bloklayaq" adlı meşəsalma tədbiri və "Ağacların karbon saxlama potensialının ölçülməsi" mövzusunda təlim keçirilib.*



Şabran rayonunun meşə fondu ərazisində təşkil edilən tədbirdə Biologiya fakültəsinin Bitki mühafizəsi və Biologiya ixtisasları üzrə təhsil alan tələbələri iştirak ediblər.

Təlim çərçivəsində Meşələrin İnkişafı Xidmətinin şöbə müdiri Vahid Fərzəliyev, 4 saylı Regional Meşə Təsərrüfatı Mərkəzinin əməkdaşı Xəqani Məmmədov tələbələrə bitkilərin əkilmə qaydaları, terras üsulu ilə aparılan əkinlər və onun əhəmiyyəti haqqında məlumat veriblər. Qeyd edilib ki, quraqlıq şəraitinə uyğunlaşan bitkilərin meşəbərpa tədbirlərində istifadəsi mühüm əhəmiyyət kəsb edir. Tələbələrə ağacların həcminin, biokütlənin və karbonun hesablanması qaydası, karbon anlayışı, ağacların karbon tutma mexanizmi barədə ətraflı məlumat verilib.

Daha sonra tələbələr Biologiya fakültəsinin sosial məsələlər üzrə dekan müavini Yusif Abiyevin rəhbərliyi altında meşəsalma aksiyasında iştirak ediblər.

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində BDU tələbələri ilə görüş



*Aprelin 3-də Bakı Dövlət Universitetinin (BDU) Sosial elmlər və psixologiya fakültəsinin Fəlsəfə ixtisasının IV kurs tələbələri Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsində Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdiri Sadiq Mirzəyev və komitənin əməkdaşları ilə görüşüblər.*

Tələbələrə həmin şöbənin fəaliyyəti ilə bağlı ümumi məlumat verilib. Qeyd edilib ki, şöbə ölkədə dini sahədə tolerantlıq mühitinin qorunması, müxtəlif dini etiqad mənsubları arasında qarşılıqlı hörmət, birgəyaşayış, dözümlülük mühitinin möhkəmlənməsi, dini xurafat, fanatizm, radikalizm və ekstremizmin, dini zəmində qarşıdurma və ayrı-seçkilik hallarının, digər mənfi təzahürlərin qarşısının alınması istiqamətində maarifləndirmə işinin təşkilini həyata keçirir. Bu məqsədlə vətəndaşların, xüsusilə gənclərin zərərli dini ideologiyaların təsiri altına düşməsinə qarşı müxtəlif formatda maarifləndirici tədbirlər həyata keçirilir.

Görüşün sonunda tələbələrin sualları cavablandırılıb və diskussiya aparılıb.

## BDU-nun SABAH qruplarının tələbələri "Gənc Avropa səfiri" seçiliblər





*Bakı Dövlət Universitetinin SABAH qruplarının Hüquqşünaslıq ixtisasının IV kurs tələbələri Minarə Rüstəmzadə və Xanım Quliyeva "Gənc Avropa səfiri" seçiliblər.*

"Gənc Avropa səfirləri" (YEAs) təşəbbüsü 2016-cı ildə Avropa İttifaqının (Aİ) Şərq Qonşuluğu üzrə Regional Kommunikasiya Proqramı ("EU NEIGHBOURS east") çərçivəsində icra olunmağa başlayıb. Bu, Azərbaycan, Belarus, Gürcüstan, Moldova, Ukrayna, Ermənistan, Aİ-yə üzv ölkələrdən və Birləşmiş Krallıqdan olan gənclər arasında dostluq münasibətləri quran və onları bir-birləri ilə əlaqələndirən qeyri-siyasi, könüllü və dinamik bir kommunikasiya şəbəkəsidir. Şəbəkənin məqsədi Aİ-nin Şərq Tərəfdaşlığı ölkələri ilə əməkdaşlığı haqqında məlumatlılığı artırmaq, müxtəlif mövzularda siyasi dialoqa töhfə vermək və daha yaxşı gələcək üçün birlikdə çalışmaqdır.

## BDU tələbəsi Belqradda Qış Hüquq Məktəbində iştirak edib

***BDU-nun SABAH qruplarının Hüquqşünaslıq ixtisasının IV kurs tələbəsi Rüstəm Əzimzadə Serbiyanın paytaxtı Belqrad şəhərində "Diplomatiya və hüquq" mövzusunda Qış Hüquq Məktəbində iştirak edib. Qış Məktəbi "ELSA (Avropa Hüquqşünas Tələbələr Assosiasiyası) Belgrade" tərəfindən keçirilib. Burada dünyanın 17 ölkəsindən 50 hüquq tələbəsi müxtəlif akademik və sosial proqramlara cəlb edilib.***

Qeyd edək ki, proqram çərçivəsində "Qloballaşma", "Avropa Birliyi ilə Serbiya Respublikası arasında diplomatik əlaqələr", "Avropa Birliyinin statusu, perspektivləri və gələcəyi", "Rəqəmsal diplomatiya", "Avropaya inteqrasiya proseslərinin yenidən qurulması", "İnsan hüquqları diplomatiyası və sosial prosedurlar" kimi mövzularda təlim və seminarlar keçirilib. Serbiyanın Diplomatiya Muzeyi, Milli Bankı, Xarici İşlər Nazirliyi, Konstitusiya Məhkəməsi və Belqrad şəhərinin müxtəlif görməli yerlərinə səfərlər təşkil edilib.

Proqramın sonunda fəal iştirakına görə fərqlənən tələbələrə sertifikat və hədiyyələr təqdim edilib.

# BDU məzunu “Forbes”in siyahısında yer alıb

*O, minlərlə gənc arasından seçilərək jurnalın 30 yaşa qədər uğur qazanan 30 nəfərin siyahısına düşüb. Günay builki siyahıda yer alan yeganə azərbaycanlıdır.*

***BDU-nun SABAH qruplarının Kimya ixtisası üzrə 2017-ci il məzunu (ingilis bölməsi) Günay İmanzadə dünyada məşhur biznes jurnalı olan “Forbes”in siyahısında yer alıb.*** O, minlərlə gənc arasından seçilərək jurnalın 30 yaşa qədər uğur qazanan 30 nəfərin siyahısına düşüb. Günay builki siyahıda yer alan yeganə azərbaycanlıdır. Jurnalın Avropa üzrə “Təhsil, biznes və digər sahələrdə sosial təsir” kateqoriyasında yer tutan məzunumuz “Metatesk” startapının təsisçisidir. “Metatesk” startapı 6-14 yaşlı uşaq və yeniyetmələr üçün müasir və interaktiv onlayn təhsil platforması kimi fəaliyyət göstərir. Bu layihə ötən il “Silikon Vadisi Mentorluğu” proqramına seçilib. Xatırladaq ki, Günay İmanzadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2023-cü ildə innovasiya sahəsi üzrə Gənclər üçün Prezident mükafatına layiq görülüb.




Günay İmanzadə 2022-ci ildə İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin təsis etdiyi “İlin İKT sahibkarı” nominasiyasının qalibi olub. “Enthouse” layihəsinin həmmüəllifidir. Bu layihə “TEKNOFEST” yarışması zamanı maraqla qarşılanıb və Türkiyə bazarına çıxış təklifi alıb. Layihə “TEKNOFEST Azərbaycan” yarışmasında C kateqoriyası üzrə 1-ci yeri tutub. Günay İmanzadə “ABB Startup Hackathon”un qalibi, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin təsis etdiyi “İlin kəşfi” nominasiyasının finalçısı, “Microsoft for Startups” proqramının üzvü, “Google for Startups” akselerasiya proqramının iştirakçısıdır. “Roblox” şirkəti ilə təhsil sahəsində əməkdaşlıq edir.

2018-ci ildə İsveçrənin Federal Texnologiya Universitetində (EPFL- Ecole polytechnique federale de Lausanne) çalışıb. 2019-2020-ci illərdə Çinin Beijing Beynəlxalq Məktəbində (“Beijing International School”) elm istiqaməti üzrə tədris aparıb.

Məzunumuzu təbrik edir, daha böyük uğurlar arzulayırıq!

# Biologiya fakültəsinin tələbələrinə açıq havada dərslər keçirilir

***Aprelin 15-dən Biologiya fakültəsində bəzi fənlər üzrə dərslərin açıq havada keçirilməsinə başlanılıb. Fakültənin Botanika və bitki fiziologiyası kafedrasının müəllimi Əsmər Hüseynova “Dərman bitkiləri” dərsini açıq havada keçib.***

Dərs prosesi zamanı təbiətin qorunması və yaşıllıqların artırılmasının əhəmiyyəti bildirilib, tələbələr müxtəlif dərman bitkiləri və müalicəvi xüsusiyyətləri ilə tanış edilib. Qeyd olunub ki, Azərbaycan florasına daxil olan ali bitkilərin və meyvələrin bir çoxu dərman əhəmiyyətlidir. İnsanlar hələ qədim zamanlardan bəri onlardan bu və ya digər xəstəliyin müalicəsində istifadə ediblər. Belə xüsusiyyətə malik bitkilər 1545 növlə təmsil olunurlar ki, bu da Azərbaycan florasına daxil olan ümumi bitki növlərinin 34,3%-ni təşkil edir. Bu saya başqa yerlərdən gətirilərək yerli şəraitə uyğunlaşan növlər də daxildir.

Tərkibindəki hər hansı kimyəvi komponent, vitamin və ya minerallar sayəsində insan həyatı üçün faydası olan bitkilər dərman bitkiləri kimi müəyyən edilir. Bu bitkilərin xəstəliklərə qarşı faydalı ola bilməsi üçün istehlak miqdarı və istifadə üsulu böyük əhəmiyyət kəsb edir. Xəstəliklərin müalicəsində dərman bitkilərindən istifadə demək olar ki, bəşəriyyətin tarixi qədər qədimdir. Ancaq dərman bitkiləri heç bir xəstəliyi tam sağalda bilməz və heç vaxt dərman əvəzinə istifadə edilməməlidir.

Dərsin sonunda tələbələrlə mövzu ilə bağlı fikir mübadiləsi aparılıb, sonra onlar bitkilərin əkilməsi prosesində iştirak ediblər.



# Universitetdə çiçəkəkmə aksiyası

***Aprelin 19-da BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş çiçəkəkmə aksiyası keçirilib.***

Çiçəkəkmə aksiyasında Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Gənclər Təşkilatının üzvləri, BDU könüllüləri, müxtəlif fakültələrin tələbələri iştirak ediblər.

Aksiyada 500-dək gül əkilib. Aksiyanın məqsədi ətraf mühitin qorunmasına kömək etmək, ekoloji tərbiyəni gücləndirmək və təbiətə töhfə verməkdir.



# BDU-da “Gənclik həftəsi” keçirilir



***Aprelin 16-da BDU-nun Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə “Gənclik həftəsi 2” layihəsinə start verilib.***

Aprelin 19-dək davam edən “Gənclik həftəsi 2” layihəsinin məqsədi tələbələrin şəxsi inkişafının təmin olunması, dünyagörüşlərinin artırılması, asudə vaxtlarının səmərəli keçirilməsi, könüllülük dəyərlərinin aşılanmasıdır.

Layihənin açılış mərasimində çıxış edən BDU-nun TGT sədri Ələkbər Həsənov layihədə iştirak edəcək tələbələrə gələcək fəaliyyətlərində uğurlar arzulayıb. O, gənclərin vətənpərvər, sağlam və intellektual ruhda inkişafı üçün bu cür layihələrin davamlı olacağını qeyd edib.

“Gənclik həftəsi 2” çərçivəsində BDU tələbələrini dərsdən sonrakı zamanlarını səmərəli keçirmək, əylənmək və öyrənmək məqsədilə müxtəlif fəaliyyətlər (oyunlar, yarışlar, təlimlər ) gözləyir. Layihədə aktiv iştirakı ilə fərqlənən gənclər hədiyyə və sertifikatlarla təltif olunacaqlar.



**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Qulu Məhərrəmli, Xatirə Hüseynova, Samir Mirzəyev, Günel Orucəliyeva

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:** 30.04 .2024

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08